QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 010 (5482) 18 **yanvar** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Əhalinin dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi üçün mühüm işlər görülür

*Prezident İlham Əliyev Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binasının və yarımstansiyalarının açılışında iştirak edib*



Səh 2

Prezident İlham Əliyev müəllimlərin dərs yükünün və əməkhaqlarının artırılması haqqında Sərəncam imzalayıb



2

Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzi istifadəyə verilib



4

""Freedom House" kimi təşkilatın qərarının müzakirəsinə ehtiyac yoxdur"



5

Ötən il Azərbaycan əhalisinin sayı 0,8 faiz artıb



5

Dini ekstremizmə qarşı mübarizəyə dair tədbirlər planı təsdiqlənib

5

"Əli Kərimli anti-Azərbaycan mərkəzlərin ruporu olmağa çalışır"



6

14

"Bütövlükdə müxalif qüvvələrin vahid mövqedən çıxış etmələri imkan xaricindədir"



11

Qlobal güclərin görüşü üçün Bakının məkan kimi seçilməsi Azərbaycanın qələbəsidir



16

Ronaldinyo karyerasını rəsmən bitirib



# Əhalinin dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi üçün mühüm işlər görülür

## *Prezident İlham Əliyev Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binasının və yarımstansiyalarının açılışında iştirak edib*





## *Rəsmi xronika*

Prezident İlham Əliyev dövlət ilk peşə-ixtisas təhsili müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlərin dərs yükünün və əməkhaqlarının, idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin isə əməkhaqlarının artırılması haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 97-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 759 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Mülki Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 386 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Fərman imzalayıb.

Yanvarın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binasının və yarımstansiyalarının açılışında iştirak edib. AZƏRTAC xəbər verir ki, orijinal layihə əsasında inşa edilən yeni inzibati bina və 220 saylı yarımstansiya bir-biri ilə harmoniya yaratmaqla modern memarlıq üslubuna malikdir. Prezident İlham Əliyev həmin obyektlərin rəmzi açılışını bildirən lenti kəsdi.

"Azərişıq" ASC-nin sədri Baba Rzayev görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Bildirildi ki, hazırda "Azərişıq"ın balansındakı bütün energetika qurğularının binaları, eləcə də ofis və yardımçı texniki binalar ən müasir standartlara uyğun inşa edilir. Qeyd edilib ki, əlavə torpaq sahəsi ayrılmadan, sıxlığa səbəb olmadan istismar müddətini keçmiş açıq paylayıcı quruluşlu yarımstansiyaların yerində əsasən qapalı tipli yarımstansiyalar və ərazidən səmərəli istifadə etməklə inzibati binalar tikilir. Yenidənqurmadan sonra istifadəyə verilən 220 saylı yarımstansiyanın ərazisində paralel olaraq meqapolislərin şəhərsalma prinsiplərinə müvafiq qaydada modern memarlıq üslubunda "Azərişıq" ASC-nin Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binası inşa olunub. Ofis binası ən müasir standartlara uyğundur. Yeni inzibati binada milli və beynəlxalq memarlıq ənənələri üzvi şəkildə bir-birini tamamlayır.

Sonra dövlətimizin başçısına yeni yarımstansiya barədə məlumat verildi. Bildirildi ki, 1954-cü ildə tikilən və istismar müddəti başa çatan 220 saylı yarımstansiya tamamilə köhnəlmişdi. Prezident İlham Əliyevin sərəncamlarına əsasən Bakı şəhərində həyata keçirilən infrastruktur layihələri, çoxmənzilli binaların tikintisi ilə əlaqədar həmin sosial obyektlərin dayanıqlı elektrik təchizatını təmin etmək üçün bir sıra yarımstansiyaların, o cümlədən 220 saylı yarımstansiyanın yerində qapalı tipli, müasir avadanlıqlarla təchiz edilən yeni yarımstansiya, həmçinin ərazidən səmərəli istifadə etməklə Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binası inşa olunub. Paytaxtın Xətai, Nəsimi, Nərimanov və Səbail rayonlarının böyük hissəsini, o cümlədən bir çox strateji obyektləri elektrik enerjisi ilə təchiz edən yeni yarımstansiya əsaslı şəkildə genişləndirilib.

**Ardı Səh. 3**

# Əhalinin dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi üçün mühüm işlər görülür

## *Prezident İlham Əliyev Bakı Paylayıcı Şəbəkəsinin yeni inzibati binasının və yarımstansiyalarının açılışında iştirak edib*





**Əvvəli-Səh-2**

Bu energetika qurğusunun gücü iki dəfədən çox artırılaraq 100 meqavoltamperə çatdırılıb. Hazırda həmin yarımstansiya 100 mindən çox sakini əhatə edən 25 min abonenti, həmçinin perspektivdə yaradılacaq obyektləri də elektrik enerjisi ilə təchiz etmək gücündədir. Yeni yarımstansiyaya “Sahil” yarımstansiyasından 35 kilovoltluq kabel xətti çəkilib. Bununla da mühüm əhəmiyyət kəsb edən Bakının qovşaq yarımstansiyalarının 35 kilovoltluq elektrik təchizatı sxeminin formalaşması işi başa çatdırılıb. Yarımstansiyada müasir tipli vakuum və eleqaz avadanlıqları, elektron tipli rele mühafizəsi və avtomatika sistemləri quraşdırılıb. Bununla yanaşı, həmin yarımstansiya SCADA - məsafədən dispetçer idarəetmə sisteminə qoşulub ki, bu da birbaşa elektron idarəetməni təmin edir.

Yeni inzibati binada əməkdaşların səmərəli fəaliyyəti üçün hər cür şərait yaradılıb. “Azərişıq” ASC-nin balansındakı bütün inzibati binalarda ən müasir informasiya-kommunikasiya texnologiyaları tətbiq edilir. Bakı Paylayıcı Şəbəkəsinin inzibati binasındakı iclas salonu da müasirliyi ilə seçilir. Burada qabaqcıl beynəlxalq təcrübədən geniş istifadə olunmaqla arxiv yaradılıb. Konfrans otağı da müasir tələblər səviyyəsində qurulub.

Sonra Prezident İlham Əliyevə Bakı Rayon Elektrik Təchizatı və Satışı İdarəsinin yenidən qurulan 110/35/10 kilovoltluq “Yasamal-1” yarımstansiyası barədə məlumat verildi. Bildirildi ki, “Yasamal-1” yarımstansiyası Bakı şəhərində tikilən ilk 110 kilovoltluq yarımstansiyalardan biridir. Həmin yarımstansiya fiziki və mənəvi baxımdan istismarını tam başa vurmuşdu, günün tələblərinə cavab vermirdi, artan yüklərin qarşılanmasında, istehlakçıların keyfiyyətli elektrik enerjisi ilə təchiz edilməsində problemlər yaranırdı. Yeni inşa olunan yaşayış binalarının artan güc tələbatını ödəmək, perspektiv inkişafa uyğun olaraq digər istehlakçıları dayanıqlı elektrik enerjisi ilə təmin etmək üçün “Yasamal-1” yarımstansiyası tamamilə yenidən qurularaq gücü iki dəfədən çox artırılıb. Həmin yarımstansiyada 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular, məsafədən idarə edilən SCADA dispetçer mərkəzi inşa olunub. “Yasamal-1” yarımstansiyası dövlət əhəmiyyətli obyektlər də daxil olmaqla, Yasamal rayonunun böyük bir hissəsini elektrik enerjisi ilə təmin edir.

Prezident İlham Əliyev məsafədən idarə olunan SCADA dispetçer sistemi vasitəsilə 110 kilovoltluq “Yasamal-1” yarımstansiyasını işə saldı.

Sonra dövlətimizin başçısına 35/10-6 kilovoltluq 120 saylı və Qobu qəsəbəsi ərazisində yeni inşa edilən 110/35/10 kilovoltluq “Qobu” yarımstansiyaları barədə məlumat verildi.

Yasamal rayonu ərazisində 1949-cu ildə tikilib istismara verilmiş 120 saylı yarımstansiyanın da elektrik avadanlıqlarının istismar müddəti bitdiyindən və bu energetika qurğusu texniki parametrlərini itirdiyindən istehlakçıların elektrik təchizatında çətinliklər yaranırdı. Yasamal rayonunda tikilən çoxsaylı hündürmərtəbəli yaşayış binalarının, təhsil, tibb, sosial və məişət obyektlərinin elektrik təchizatını təmin etmək üçün yarımstansiyanın yenidən qurularaq gücləndirilməsi zərurəti yaranmışdı. Bu səbəbdən tamamilə yenidən tikilən 120 saylı yarımstansiyanın gücü də iki dəfə artırılıb. Yarımstansiyada 35, 10 və 6 kilovoltluq yeni qapalı paylayıcı qurğular inşa edilib, müasir tipli eleqaz və vakuum elektrik avadanlıqları, digər avtomatika sistemləri quraşdırılıb. Bununla da həmin yarımstansiya 110 kilovoltluq “Yasamal-1”, “Badamdar” və “Dağlıq” yarımstansiyalarından qidalanan 35 kilovoltluq elektrik təchizat sxeminə daxil edilib. Hazırda 120 saylı yarımstansiyadan dövlət əhəmiyyətli və iri enerji tutumlu obyektlər, yaşayış massivləri və digər sosial obyektlər elektrik enerjisi ilə təmin olunur.

Prezident İlham Əliyevə məlumat verildi ki, Qobu qəsəbəsinin ərazisində ilk dəfə 110 kilovoltluq yeni yarımstansiya inşa edilib. Son illərdə bu ərazidə yaşayış massivlərinin sürətlə artması, o cümlədən Qobu, Güzdək, Aşağı Güzdək, Hökməli, Sulutəpə, Masazır, Müşfiq qəsəbələrinin və Xırdalan şəhərinin böyük bir hissəsinin dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi üçün bu yarımstansiyanın inşası zəruri idi. Yarımstansiyanın 110 kilovoltluq 3-cü və 4-cü Puta hava xətlərinə birləşdirilməsi üçün 110 kilovoltluq dayaqlar quraşdırılıb, yaşayış məntəqələrini elektrik enerjisi ilə təmin etmək məqsədilə 10 kilovoltluq hava xətləri çəkilib. Yeni inşa edilmiş “Qobu” yarımstansiyasından çəkiləcək 35 kilovoltluq elektrik verilişi xətləri vasitəsilə “502” və “Hökməli” yarımstansiyalarının elektrik təchizatı təmin ediləcək.

Dövlətimizin başçısına “Azərişıq”ın elektrik təchizatı sxemi, 110 kilovoltluq “Bayramzadə” yarımstansiyası, Külək Elektrik Parkı və digər yenidənqurma layihələri barədə də məlumat verildi. Bakı Paylayıcı Şəbəkəsinin inzibati binası və yeni yarımstansiyalarla tanış olan Prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.





# Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzi istifadəyə verilib

***Yanvarın 17-də Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib. Naxçıvan Dövlət Universitetinin Xarici tələbələrlə iş üzrə dekan müavini, elektron təhsil portalının administratoru Hüseyn Qasımov distant təhsil proqramı haqqında məlumat verib.***



Qeyd olunub ki, Naxçıvan Dövlət Universitetində distant formada təhsil almaq istəyən xarici tələbələr universitetin ndu.edu.az saytına müraciət edərək “Distant təhsil” bölməsinə daxil olmalıdırlar. Tələbələr burada distant təhsil haqqında məlumatlar və qəbul qaydaları ilə tanış olduqdan sonra tələb olunan sənədləri elektron formada universitetə göndərməlidirlər. Müraciət qəbul olunduqdan sonra tələbənin elektron poçtuna müvafiq məlumat göndərilir, qeydiyyatdan keçən hər bir tələbəyə proqram tərəfindən fərdi identifikasiya nömrəsi verilir və ona şəxsi kabinet ayrılır. Bu da tələbələrə məzun olduqdan sonra da öz istifadəçi adı və şifrəsi ilə sistemə daxil olmasına və təhsil sənədlərini əldə etməsinə imkan verəcəkdir.

Çoxfunksiyalı distant təhsil proqramında dərslər offlayn və onlayn rejimdə tədris olunacaqdır. Tədris planları, ixtisaslar və müəllimlər haqqında məlumatlar sistemə yüklənib, müəllimlərin mühazirələrinin elektron variantı və videodərslər hazırlanıb. Distant təhsilə cəlb edilən müəllimlər seçilib və onlara portaldan istifadə haqqında təlimlər keçirilib, müəllimlərin distant təhsil proqramından istifadə qaydaları ilə bağlı təlimat hazırlanıb. Keçirilən dərslərin yaxşı mənimsənilməsi üçün elektron kitabxana portalı proqrama inteqrasiya edilib. Tələbələr əvvəlcədən dərs proqramları, müəllimin verdiyi tapşırıqlar və mühazirələrlə tanış ola, həm offlayn, həm də onlayn rejimdə sual-cavab apara bilərlər. Həmçinin istifadəçilər arasında diskussiyalar təşkil etmək, onlayn sorğu və müzakirələr aparmaq mümkündür. Tələbələr video və yazılı formada təqdim edilən dərsləri öz kompüterinə yükləmək və istənilən vaxt yararlanmaq imkanına da malikdirlər. İmtahanlar da onlayn formada aparılır və nəticələri barədə tələbələrə məlumat verilir. Distant təhsil üzrə məzunlara Azərbaycan və ingilis dillərində təhsili bitirmək haqqında elektron sənəd təqdim olunur. Tələbələr istənilən ölkədən kompüter, mobil telefon və planşetlər vasitəsilə Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzinə qoşula bilərlər. Təqdimat zamanı tələbələr müxtəlif məkanlardan kompüter və mobil telefon vasitəsilə Distant Təhsil Mərkəzinə qoşulublar. Sonra Ali Məclisin Sədri Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzi ilə tanış olub.

Bildirilib ki, mərkəz Xarici tələbələrlə iş üzrə dekanlığın nəzdində fəaliyyət göstərir. Mərkəzdə auditoriya yaradılıb, 1 noutbuk, 2 kompüter, tribuna və proyektor quraşdırılıb. Distant təhsil üzrə tələbə qəbulunun aparılması, dərslərin yazılması, tədrisin idarə olunması ilə bağlı işçi qrupu yaradılıb, işçi qrupun üzvləri Türkiyənin Ərzurum Atatürk Universitetində və Ankara Qazi Universitetində təcrübədə olublar. İlkin mərhələdə xarici dil müəllimliyinin ingilis, fransız, alman və rus dilləri olmaqla 4 ixtisas üzrə distant təhsilin aparılması nəzərdə tutulur.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov deyib: Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi muxtar respublikanın həyatında əlamətdar hadisədir. Distant Təhsil Mərkəzi Naxçıvan Dövlət Universitetinin keçdiyi inkişaf yolunun nəticəsidir. 13 il bundan əvvəl keçirilən “Elektron Naxçıvan-1” konfransında Naxçıvan Dövlət Universitetinin kompüterləşməsi proqramının əsası qoyulub və bu gün Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi ilə başa çatıb. Bu gündən etibarən isə universitetdə distant təhsilin tətbiqinə başlanılır. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, distant təhsil Naxçıvan Dövlət Universiteti ilə yanaşı, muxtar respublikanın digər ali və orta ixtisas məktəblərində də tətbiq edilməlidir.

Ali Məclisin Sədri deyib: Naxçıvan Dövlət Universiteti uğurlu inkişaf yolu keçib. Əgər 1996-cı ildə Naxçıvan Dövlət Universiteti ölkəmizdə 37 universitet arasında 36-cı yerdə idisə, 2016-2017-ci tədris ilində yeni texnologiyaların tətbiqi, tədrisin səviyyəsi, mənimsəmə və davamiyyətə görə ölkəmizdəki ali təhsil müəssisələri arasında birinci yerə layiq görülüb. Bu gün isə ölkəmizin ali təhsil müəssisələri arasında ilk dəfə Naxçıvan Dövlət Universitetində distant təhsilin əsası qoyulur. Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi vacib məsələdir. Çünki bu, Naxçıvan Dövlət Universitetinin dünya təhsil sisteminə inteqrasiyasını daha da sürətləndirəcəkdir. Eyni zamanda, distant təhsilin tətbiqi müəllimlərin dərs saatının və əməkhaqqının artırılmasına da təsir göstərəcəkdir. Hazırda Naxçıvan Dövlət Universiteti 58 ixtisas üzrə bakalavr təhsili verir. Bu gündən etibarən isə 4 ixtisas üzrə distant təhsil həyata keçiriləcəkdir. Ona görə də mərkəzdə yaradılan şəraitdən düzgün istifadə olunmalı, ixtisasların sayı və müəllimlərin hazırlıq səviyyəsi artırılmalı, tədris olunan ixtisaslar üzrə ədəbiyyatlar hazırlanmalı, Distant Təhsil Mərkəzi beynəlxalq təhsil sistemində tanıdılmalıdır. Ali Məclisin Sədri Naxçıvan Dövlət Universitetinin Distant Təhsil Mərkəzinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edib, onlara uğurlar arzulayıb.



## Universitetin Tibb fakültəsinin binası yenidən qurulacaqdır

Muxtar respublikada səhiyyənin inkişafı sahəsində həyata keçirilən tədbirlər sırasında ixtisaslı tibbi kadrların hazırlanması xüsusi yer tutur. Naxçıvan Dövlət Universitetinin tibb fakültəsi də ixtisaslı həkimlərin hazırlanması istiqamətində səmərəli fəaliyyət göstərir. Bu il fakültənin yerləşdiyi bina əsaslı şəkildə yenidən qurulacaq.

Yanvarın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binanın yenidənqurma layihəsinə baxıb.

Məlumat verilib ki, uzun müddət istismar olunan bina müasir tədrisin tələblərinə uyğun qurulacaqdır. 812 yerlik olacaq binada 28 auditoriya, kompüter otağı, elektron siniflər, laboratoriyalar, anatomiya muzeyi, mulyaj otağı, 108 yerlik konfrans zalı, kafedralar və digər iş otaqları yerləşəcəkdir. Yenidənqurma işlərindən sonra bina zirzəmi qatı ilə birlikdə 4 mərtəbədən ibarət olacaqdır.

Ali Məclisin Sədri tikinti işlərinə başlanması ilə bağlı tapşırıqlar verib.

# Siyavuş Novruzov: “”Freedom House” kimi təşkilatın qərarının müzakirəsinə ehtiyac yoxdur”

*“Ümumiyyətlə, Human Rights Watch, Freedom House və bir neçə bu kimi təşkilatlar 25 ildən artıqdır ki, Azərbaycan haqqında düzgün olmayan, qərəzəli, ölkəmiz haqqında məlumatı olmayan, kimlərinsə yazdığını götürüb dərc edən, fikirlər yayımlayan qurumlardır. Həmin məlumatlar isə başdan ayağa qərəzdir. Freedom House bir qeyri-hökumət təşkilatıdır. Belə bir qurumun dediklərinin heç birinə əhəmiyyət vermək lazım deyil”. Bu fikirləri Freedom House təşkilatının Azərbaycanla bağlı hesabatına münasibət bildirərkən MM-in deputatı, YAP İcra katibinin müavini Siyavuş Novruzov deyib.*



Onun sözlərinə görə, Azərbaycanda beş minə yaxın qeyri-hökumət təşkilatı var. Doxsana yaxın siyasi partiya mövcuddur. Xeyli sayda mətbuat orqanı fəaliyyət göstərir. Hər bir media orqanı və yaxud qeyri hökumət təşkilatı, siyasi partiya bir başqa dövlət haqqında bir yazı dərc etdiyi halda bunun hansı hüquqi əsası ola bilər?! Heç bir hüquqi əsası yoxdur: “Həmin təşkilat hansı tədqiqatı apara bilər? Dünyada 200-dən artıq ölkə var. Freedom House bir qrup dövləti azad, digər ölkələri isə yarım azad və azad olmayan ölkə kimi müəyyənləşdirir. Bütün bunları dəqiq şəkildə müəyyənləşdirmək, tədqiqatını aparmaq üçün onun ən azından on min işçisi olmalıdır. Hər hansı bir ölkədən anonim yazı almaqla həmin dövlət haqqında “məlumat” verməyin özü etikadan kənardır. Digər tərəfdən, həmin təşkilatın yaydığı bəyanatların heç bir hüquqi əsası yoxdur.”

Siyavuş Novruzov qeyd edib ki, sadəcə olaraq, həmin qurum erməni lobbisinin, başqa-başqa təşkilatların əlində alətə çevrilib. Azərbaycanın bugünkü inkişafı, ölkəmizdə həyata keçirilən layihələri onların gözü götürmür: “Tək 2017-ci ildə Azərbaycan Avropa İttifaqı ilə bir çox layihələr həyata keçirib. Dünya ölkələrinin rəhbərləri Azərbaycana mütəmadi səfərlər ediblər. Region ölkələrinin liderləri ölkəmizə gəlib, ikitərəfli və çoxtərəfli müqavilələr imzalanıb. O cümlədən, cənab Prezidentin 20-dən artıq xarici ölkəyə səfəri baş tutub. Bu yaxınlarda ölkə başçısının həm Münhen Təhlükəsizlik Konfransında, həm də Davos İqtisadi Forumunda iştirakı gözlənilir. Dünyanın samballı təşkilatlarından olan Davos İqtisadi Forumu Azərbaycanın daha irəliyə getdiyini, ölkəmizdə biznes mühitinin azad olduğunu və digər məsələlərlə bağlı özünün bəyanatlarını hər il dərc edir. Dünya ölkələrinin əksəriyyəti də buna dəstək verir.” Siyavuş Novruzov hesab edir ki, adıçəkilən təşkilatın bəyanatlarına ciddi əhəmiyyət verilməməlidir. Freedom House ən hörmətsiz təşkilatlardan biridir və bu təşkilatın qərarının Azərbaycanda müzakirəsinə ehtiyac yoxdur.

## Azərbaycan ilə Fransa arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş potensial var

***Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Fransaya işgüzar səfəri çərçivəsində bu ölkənin Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan-Batist Lömuan ilə görüşüb. Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazirlər Azərbaycan ilə Fransa arasında ikitərəfli və çoxtərəfli münasibətlərin cari səviyyəsindən məmnunluqlarını bildiriblər. İki ölkə arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün geniş potensialın mövcudluğu qeyd edilib. 2017-ci ilin sentyabrında yeni formalaşmış Fransa hökumətinin ilk üzvü kimi Azərbaycana rəsmi səfər etdiyini deyən fransalı dövlət katibi səfər çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünü və səfərin nəticələrini yüksək qiymətləndirib.***



Nazirlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqların cari vəziyyəti barədə fikir mübadiləsi aparıblar. Elmar Məmmədyarov Ermənistan-Azərbaycan münaqişəsi üzrə danışıqlar prosesinin gedişi ilə bağlı ətraflı məlumat verib. O, 2018-ci il yanvarın 18-də Polşanın Krakov şəhərində ATƏT-in Minsk qrupunun həmsədrləri və Ermənistanın xarici işlər naziri ilə görüşəcəyini bildirib.

Elmar Məmmədyarov Fransanın bir sıra şəhərlərinin Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən yaradılmış qondarma rejim ilə qanunsuz əlaqələr yaratması, qondarma rejimin təmsilçiləri kimi özünü təqdim edən şəxslərin Fransa ərazisinə daxil olması kimi faktların ATƏT-in Minsk qrupunun həmsədri olaraq Fransanın mərkəzi hökuməti tərəfindən qarşısının alınmasının vacibliyini bildirib.

Azərbaycan və Fransa arasında iqtisadi-ticarət əlaqələrini nəzərdən keçirən nazirlər enerji, nəqliyyat, metro, kosmik sənaye, kənd təsərrüfatı, təhsil, mədəniyyət və digər sahələrdə əməkdaşlığın dinamik sürətdə inkişaf etdiyini və 50-dən artıq Fransa şirkətinin Azərbaycanda fəaliyyət göstərdiyini vurğulayıblar.

Azərbaycan və Fransanın təhsil sahəsində sıx əməkdaşlıq etdiyini bildirən nazirlər Azərbaycanda fəaliyyət göstərən Azərbaycan-Fransız Universitetinin bu əməkdaşlığın parlaq göstəricisi olduğunu qeyd ediblər. Azərbaycan-Avropa İttifaqı münasibətlərinə toxunan Elmar Məmmədyarov ölkəmizlə Avropa İttifaqı arasında strateji tərəfdaşlıq sənədi üzərində iş aparıldığını və əlaqələrin uğurla inkişaf etdiyini söyləyib. Görüşün sonunda nazirlərin iştirakı ilə Azərbaycan Milli Elmlər Akademiyası ilə Fransanın Montpellier Universiteti arasında əməkdaşlıq haqqında çərçivə və dissertasiya və maliyyələşmə haqqında əməkdaşlıq sazişləri imzalanıb. Sazişlər AMEA-nın prezidenti, akademik Akif Əlizadə və Montpellier Universitetinin beynəlxalq əlaqələr üzrə vitse-prezidenti Fransua Henn tərəfindən imzalanıb.

## Ötən il Azərbaycan əhalisinin sayı 0,8 faiz artıb

Ötən ilin əvvəlindən Azərbaycan əhalisinin sayı 80731 nəfər və ya 0,8 faiz artaraq dekabrın 1-nə 9890712 nəfərə çatıb. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildiriblər ki, əhalinin 53,0 faizini şəhər, 47,0 faizini kənd sakinləri, 49,9 faizini kişilər, 50,1 faizini isə qadınlar təşkil edir. Əhalinin bir kvadratkilometrə düşən sıxlığı 114 nəfər olub. Hazırda hər 1000 kişiyə 1006 qadın düşür. Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin yanvar-noyabr aylarında ölkə üzrə 132002 doğulan körpə qeydə alınıb və əhalinin hər 1000 nəfərinə bu göstərici 14,8 təşkil edib. Doğulan körpələrin 53,1 faizi oğlan, 46,9 faizi isə qız uşaqları olub. Körpələrdən 2374-ü əkiz, 54-ü üçəm doğulanlardır.



Yanvar-noyabr aylarında ölkədə 52318 ölüm halı qeydə alınıb və əhalinin hər 1000 nəfərinə ölüm səviyyəsi 5,9 təşkil edib. 2017-ci ilin 11 ayı ərzində qeydiyyat şöbələri tərəfindən 57177 nikah və 13345 boşanma halları qeydə alınıb və əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,4, boşanmaların sayı isə 1,5 olub. Yanvar-noyabr ayları ərzində Daxili İşlər Nazirliyi və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən daimi yaşamaq üçün 2751 nəfər Azərbaycana gələn, 1704 nəfər isə Azərbaycandan gedən qeydə alınaraq, miqrasiya saldosu müsbət 1047 nəfər təşkil edib.

## Dini ekstremizmə qarşı mübarizəyə dair tədbirlər planı təsdiqlənib

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, Baş Prokurorluq və Dövlət Təhlükəsizliyi Xidməti arasında dini ekstremizmə qarşı mübarizənin 2018-ci il ərzində də davam etdirilməsi məqsədilə tədbirlər planı imzalanıb. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirlər planında dini ekstremizmə və onu doğuran səbəblərə qarşı birgə mübarizənin aparılması, bu istiqamətdə fəaliyyət göstərən qurumlar arasında koordinasiya işinin təşkili məqsədilə respublikanın bütün bölgələri əhatə olunmaqla seminar-müşavirələrin keçirilməsi nəzərdə tutulub. İctimaiyyət nümayəndələrinin də cəlb olunacağı bu tədbirlərdə Azərbaycan Respublikasında mövcud dövlət-din münasibətləri, bu sahədəki təhdidlər, eləcə də dini ekstremizmin yaranma səbəbləri və ona qarşı mübarizənin hüquqi əsasları, ölkəmizdəki multikultural mühit və tolerantlıq ənənələri, müxtəlif dinlər və məzhəblər arasında əməkdaşlığa dair mövzularda geniş fikir mübadiləsinin aparılması planlaşdırılır.

# 20 Yanvar faciəsi Azərbaycan xalqının qəhrəmanlıq səhifəsidir



Dünən Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi və Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının birgə təşkilatçılığı ilə 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş tədbir keçirilib. Tədbirin məqsədi bu tarixi təbliğ etməklə, 20 Yanvar şərəf və qəhrəmanlıq tariximizin müstəqilliyimizin qazanılmasında rolunun və əhəmiyyətinin yetişməkdə olan gənc nəsillərə çatdırılmasıdır. Tədbirdə öncə, 20 Yanvar faciəsinin şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan YAP Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı xalqımızın mübarizə tarixində ən şanlı səhifələrdən olan Qanlı Yanvar faciəsini insanlığa qarşı törədilmiş qatı cinayət olduğunu bildirib. O, 20 Yanvar hadisələrinin mənəvi, siyasi və hüquqi aspektləri barədə məlumat verərək, xalqımızın həyatında və yaddaşında dərin iz qoymuş faciənin ağır nəticələrinə diqqəti yönəldib: "1990-cı il yanvar ayının 20-si Azərbaycan tarixinin qanlı səhifəsinə çevrilsə də, eyni zamanda, xalqımızın qəhrəmanlıq ənənələrinə sadiqliyini, vətənin müstəqilliyi və azadlığı uğrunda canından belə keçməyə hazır olduğunu bir daha sübut etdi. Məhz buna görə də, 20 Yanvar faciəsi xalqımızın azadlıq mübarizəsinin rəmzidir. Faciənin səhəri günü Ümummilli Lider Heydər Əliyev təhlükə və təqiblərə baxmayaraq, Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək, Sovet rəhbərliyinə, kommunist rejiminə qarşı etirazını bildirməklə ekstremal durumda ani olaraq düzgün qərar qəbul etmək bacarığını nümayiş etdirib. Qanlı Yanvar hadisələrinə ilk dəfə hüquqi-siyasi qiymət də Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra verilib".

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyinin aparat rəhbəri, ərazi ilk partiya təşkilatının sədri Anar Quliyev vurğulayıb ki, 20 Yanvar faciəsi, eyni zamanda, xalqımızın milli azadlıq və müstəqillik uğrunda mübarizəsinin kulminasiya və dönüş nöqtəsi idi. 1990-cı il yanvarın 20-də Azərbaycan xalqının azadlığını, şərəf və ləyaqətini hər şeydən uca tutan vətən övladları canlarından keçərək, şəhidlik zirvəsinə ucalıblar. Ona görə də, bu hadisə Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə həm də bir qəhrəmanlıq səhifəsi kimi daxil olub.

Bu tarixi gündə Azərbaycan xalqı əsrlər boyu qəlbində yaşatdığı milli azadlıq və istiqlal istəyindən geri çəkilməyəcəyini, müqəddəs amal uğrunda, hətta canından belə keçməyə hazır olduğunu bütün dünyaya nümayiş etdirdi. Ağır texnikadan və odlu silahlardan istifadə edilməklə, insanlığa qarşı törədilmiş terror aktı Azərbaycan xalqının yaddaşında silinməz iz qoyub.

Tədbirdə YAP Nəsimi rayon təşkilatı Azərbaycan Dillər Universitetinin ərazi ilk partiya təşkilatının sədri, universitetin prorektoru Sərraf Hüseynov çıxışında 20 Yanvar faciəsinin Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi həkk olunduğunu vurğulayıb. Bildirib ki, 20 Yanvar hadisələri faciəvi olsa da, milli dövlətçiliyimizin bərpasında və milli dövlətçiliyimizə gedən yolda xüsusi önəm daşıyır.

Tədbirdə çıxış edən şəhid ailələri dövlətimiz tərəfindən onlara göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını və bildiriblər. 20 Yanvar xalqımızın azadlıq uğrunda mübarizə tarixinin şanlı səhifəsi olduğu və bu tarixin heç vaxt unudulmayacağı vurğulanıb.

Tədbirin sonunda təşkilatçılar tərəfindən Qanlı Yanvar hadisələri zamanı həlak olmuş şəhidlərin ailə üzvləri və əlil olmuş şəxslərə müvafiq yardım edilib.

**Nəzakət ƏLƏDDİNQIZI**

# "Ermənistanda seçkiöncəsi siyasi böhran daha da dərinləşəcək"

***Ermənistan iqtisadiyyatı tam şəkildə xarici dövlətlərin inhisarındadır və ölkəyə qoyulan sərmayələr yalnız xaricdə yaşayan erməni lobbisi tərəfindən idarə olunduğu üçün ölkədə böyük siyasi gərginlik hökm sürür. Bunu AZƏRTAC-a müsahibəsində politoloq Arzu Nağıyev bildirib. Politoloqun sözlərinə görə, Serj Sarkisyan və komandası siyasi böhranla üzləşib. Mart ayında Ermənistanda keçiriləcək prezident seçkiləri ilə əlaqədar Sarkisyan rejimi ictimai rəyi formalaşdırmaq üçün əlindən gələni edir. Lakin iqtisadi, siyasi və hərbi böhran demək olar ki, onun əleyhinə işləyir.***

Arzu Nağıyev qeyd edib ki, artıq Dağlıq Qarabağ münaqişəsi erməni ictimaiyyətinin ciddi narahatlığına yol açır. Daha doğrusu, müharibəyə cəlb olunduqlarını başa düşən insanlar etiraz səslərini ucaldırlar, hətta bununla bağlı son vaxtlar iğtişaşlarla nəticələnən mitinqlər də olub. Politoloqun fikrincə, bu proses daha da dərinləşəcək və seçki öncəsi intensiv xarakter alacaq. Ermənistandakı mövcud rejim Dağlıq Qarabağ kartından istifadə edən müharibə partiyasıdır ki, burada da Sarkisyan və onun klanı birləşib. Digərləri isə qərbyönümlü və xaricdən maliyyələşən, Rusiyada cinayətkar fəaliyyətlə məşğul olan kriminal ünsürlərlə əlaqəli biznesmenlər qrupudur. Erməni ictimaiyyəti anlayır ki, Dağlıq Qarabağ münaqişəsi sonu olmayan və Yerevanın xeyrinə nəticələnə bilməyəcək bir xülyadır. Azərbaycan heç vaxt imkan verməyəcək ki, ərazisində ikinci bir erməni dövləti yaransın. Bu barədə danışan Arzu Nağıyevin sözlərinə görə, narazılıqlar Sarkisyan və onun komandasının insanları səfalətə sürükləyən xətt tutduqlarını bir daha göstərəcək. Burada da əsas problem məhz Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi, Sarkisyanın öz hakimiyyəti naminə status-kvonu saxlamaq cəhdidir. Politoloqun fikrincə, Ermənistanın siyasi-hərbi mənzərəsinə baxdıqda görünən odur ki, düşmən ölkənin ordusu kreditlər və ianələr hesabına fəaliyyət göstərən bir quruma çevrilib. Azərbaycanın işğal olunmuş ərazilərinə əsasən muzdlular, terror qruplarının axtarışda olan cinayətkar ünsürləri gətirilib. Bunu artıq hər bir erməni vətəndaş dərk edir və görür. Erməni analar öz övladlarının Sarkisyanın istəyi və yarıtmaz siyasəti naminə ölməsini istəmirlər. Məhz bu səbəbdən ölkədə demoqrafik tarazlıq pozulub, gənclər orduya getməmək üçün ölkəni tərk edirlər.

2016-cı il aprel hadisələrindən sonra Ermənistan hərbi elitasında istefaların və həbslərin davam etdiyini deyən Arzu Nağıyev vurğulayıb ki, ordunu silah-sursat və avadanlıqla təchiz etmək üçün külli miqdarda vəsait lazımdır. İqtisadiyyatın tənəzzülə uğraması fonunda bu, mümkün olmayacaq və nəticədə orduya inam azalmaqda davam edəcək.

## "Əli Kərimli anti-Azərbaycan mərkəzlərin ruporu olmağa çalışır"



"Ümumiyyətlə, qeyri-müəyyən, dumanlı, məntiqsiz və əsassız fikirləri qeyri-ciddi adamlar səsləndirirlər. Bu sadəcə olaraq diqqəti cəlb etməkdir. Əgər nəyisə bərpa etmək lazımdırsa, ilk növbədə özlərini siyasətçi adlandıran adamlar gedib özlərinin siyasi reputasiyalarını, siyasi imiclərini bərpa etsinlər". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib. Onun sözlərinə görə, Azərbaycan dövləti bu gün çox güclüdür: "Azərbaycanın bu gün güclü olmasının əsas səbəbi dövlət başçısı tərəfindən həyata keçirilən düzgün, doğru və milli maraqlarımıza söykənən siyasətdir. Çox mürəkkəb regionda olmağımıza, dünyada çox böyük iqtisadi, siyasi kataklizmlər baş verməsinə, ətrafımızda çox ciddi terror təşkilatlarının mövcud olduğuna baxmayaraq Azərbaycan günü-gündən inkişaf edir, dövlətçiliyimiz möhkəmlənir, ölkəmizin beynəlxalq nüfuzu artır. Görünür, Azərbaycanın hər gün bir qədər daha güclənməsi, hərbi sənaye qurması, ölkənin inkişaf etməsi Azərbaycanı sevməyən bəzi qüvvələri narahat edir. Ona görə də Azərbaycanı sevməyən xarici güclər vaxtaşırı Əli Kərimli kimi adamlar vasitəsilə Azərbaycan ictimai rəyində neqativ fikir formalaşdırmağa çalışırlar. Amma nəzərə almırlar ki, Əli Kərimli kimi adamların Azərbaycan ictimai rəyinə ümumiyyətlə, aidiyyəti yoxdur. Çünki bu insan çoxdan ifşa olunub. Bu insanın kim olduğu Azərbaycan ictimaiyyətinə dəqiq bəllidir".

## Dövlət Filarmoniyasında YAP-ın ilk ərazi partiya təşkilatı yaradıldı

Dünən Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının ilk ərazi partiya təşkilatı yaradılıb. SİA-nın verdiyi məlumata görə, bununla bağlı təşkil olunmuş tədbirdə YAP Səbail rayon təşkilatının sədri, millət vəkili Şəmsəddin Hacıyev, Dövlət Filarmoniyasının direktor müavini Afət Məlikov, YAP Səbail rayon təşkilatı sədrinin müavini Muxtar Nağıyev, YAP Səbail rayon təşkilatının aparat rəhbəri Zəfər Bayramov, Dövlət Filarmoniyasının əməkdaşları və fəal gənclər iştirak edib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Dövlət Filarmoniyasının direktor müavini Afət Məlikov bildirib ki, Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının Dövlət Filarmoniyasında ilk ərazi partiya təşkilatının yaranmasına zərurət kollektivin çoxsaylı müraciətləri əsasında baş verib.

YAP Səbail rayon təşkilatının sədri, millət vəkili Şəmsəddin Hacıyev isə belə bir addımın atılmasından qürur hissi duyduğunu dilə gətirib və Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan, əldə etdiyi uğurlardan bəhs edib. Bildirilib ki, Azərbaycanın müstəqil, demokratik, sivil dövlət kimi qurulması və möhkəmləndirilməsində, vətəndaş cəmiyyəti quruculuğunda fəal rol oynayan YAP-ın yaranması ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi.

Qeyd edilib ki, Azərbaycan xalqının müqəddəratının həll edən, dünənin, bu günün və sabahın məsuliyyətini öz üzərinə götürən, müstəqil Azərbaycan dövləti ilə eyni zamanda təşəkkül tapan Yeni Azərbaycan Partiyası aparıcı siyasi qüvvə kimi bütün qüvvə və bacarığını xalqa xidmətə yönəldərək, bir-birindən əhəmiyyətli uğurlara imza atıb. Partiyanın yaradıcısı, Ümummilli Lider Heydər Əliyevin zəngin təcrübəsi, müstəqil, demokratik, hüquqi dövlət quruculuğu yolunda gərgin fəaliyyəti Azərbaycanın bugünkü və gələcək taleyini müəyyən edib. Yeni Azərbaycan Partiyası nəinki ölkəmizdə, həmçinin Qafqaz regionunda ən güclü, ən mükəmməl siyasi təşkilatdır və ictimai nüfuzuna görə onunla müqayisə oluna biləcək bir qurum yoxdur. Bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi Yeni Azərbaycan Partiyası ən ali ideallara xidmət edir. O bildirib ki, hazırda Azərbaycan dünyada söz sahibi olan ölkəyə çevrilib: "Həqiqətən, Azərbaycan inkişafının yüksək mərhələsini yaşayır. Bu gün Azərbaycan transmilli layihələrin müəllifidir, Azərbaycan kredit alan ölkədən kredit verən ölkəyə çevrilib. Hazırda yeni çağırışlar var, ölkədə bilik iqtisadiyyatı cəmiyyəti formalaşır. Neft kapitalı insan kapitalına çevrilir. Biz bu çağırışlara cavab verməliyik". Tədbirə diskussiya şəklində yekun vurulub.



MƏTLƏB
Metlebsalahov@mail.ru

## Tramp Ərdoğanı PKK ilə cəzalandırır?

Məncə, bu yazıda heç bir girişə, hansısa bər-bəzəkli şərhə ehtiyac yoxdur. Konkret desək, son bir neçə ildə dünya siyasətində Rusiyadan daha çox, məhz keçmiş Sovet KQB-şniki Vladimir Putinə uduzan ABŞ, artıq əzik görünüşdən bezərək, əks-hücuma keçməyə qərar verib. Xüsusilə Suriya məsələsində V.Putinə rüsvaycasına uduzan rəsmi Vaşinqton, artıq müttəfiq-filan dinləmədən, İkinci Dünya müharibəsindən sonra bu regiondakı əsas tərəfdaşlarından sayılan Türkiyəni cəzalandırmağa qərar verib.

Çünki məhz Türkiyə okeanın o tayındakı "demokratiya ayısına" yerini göstərməyə və onun ikiüzlü siyasətinin artıq bezdirici olduğunu açıq səslə dilə gətirməyə başlamışdı. Hələ bu, azmış kimi, 2016-cı ilin qızmar iyulunda Ərdoğanı devirməyə qalxan Fətullah Gülən və onun tərəfdarlarının okeanın o tayında yuva salması da bir çox mətləblərə "gün işığı salmışdı". Ərdoğan da ona qarşı başlanan giləvarın hansı tərəfdən "əsdiyini" artıq diplomatiyasız şəkildə meydanlarda bəyan etməkdədir.

Keçən ay NATO təlimlərində hədəf taxtasına Mustafa Kamal Atatürkün və Ərdoğanın rəsmlərinin yerləşdirilməsi də, "soyuq müharibə" dövründən bəri bir-birinə sadiq olan NATO müttəfiqlərinin artıq bir cərgədə yan-yana durmayacaqlarını, rəsmi Ankaranın ona qarşı alyans daxilində yaşanan açıq həyasızlıqları qulaqardına vurmayacağını gün üzünə çıxarmaqdadır. Ərdoğanın Qərbdən üz çevirib, həmin Qərb ölkələrinin bu gün adının baş hərfindən belə "üyütdükləri" Vladimir Putinlə real siyasi işbirliyinə girməsi də ABŞ-ı hövsələdən çıxaran əsas faktlardandır. 1967-ci ildən bəri Türkiyəni Avropa İttifaqının qapısında gözlədən Qərb siyasətçiləri, Ərdoğanın artıq bu qapıda mənasız gözləməyə səbrlərinin çatmadığını, Aİ-nin onlar üçün heç bir önəm daşımadığını elan etməsini "həzm" edə bilmirlər. Əslində, Ərdoğanın yerinə başqa bir ciddi türk siyasətçisi də olsaydı, məhz bu real variantı seçərdi. Artıq maskası yırtılmış mənasız Qərb siyasəti, üfunət iyi verən çoxillik zibilliyi xatırladır. Elə bir zibillik ki, artıq İngiltərənin özü belə, bu mənasız siyasi ittifaqı tərk etməyə tələsir və buradakı hər ay itirdiyi itkiləri təşvişlə hesablayır.

Kimlərinsə siyasi maraqları və hikkələrinə görə yüz milyonlarla dollar itirmək, əvəzində, böyük uzunmüddətli böhranlarla üz-üzə qalmaq ingilislərin nəyinə gərəkdir ki? Heç şübhəsiz ki, bu məsələdə ABŞ-ın Şərqdəki "ərəb baharı" kampaniyasında ələ keçirdiyi milyardlarla sərvəti avropalılarla bölüşməkdən imtina etməsi də əsas rol oynayır. Bir sözlə, Fransa və İngiltərə başda olmaqla, əksər Avropa ölkələri artıq ABŞ-ın dünya siyasətindəki layihələrində "kukla" rolunda çıxış etmək istəmirlər. Hər kəs artıq öz marağını fikirləşir.

Türkiyə isə, belə demək mümkünsə, respublika kimi yarandığı 1923-cü ildən bəri ilk dəfə nəhəng ABŞ-a meydan oxumağa başlayıb və dünya siyasətindəki "daşların yenidən düzənlənəcəyi" dövrə hazırlaşır. Ərdoğanın Putinlə az qala müttəfiq səviyyəsindəki yeni siyasi layihələri də durduğu yerdən meydana çıxmayıb. Ən azı Ərdoğan, dünya siyasətindəki tablonun yenidən cızıldığını bilən üçbeş dünya siyasətçisindən biri kimi görünür.

Dəlisov D.Tramp isə, ABŞ-ın dünya siyasətindəki mövqelərini yerdən-yerə vurmaqda davam edir. Adam sanki ABŞ-ın düşməni kimi hərəkət etməkdədir. Nə iş görürsə, hamısı ABŞ-ın maraqlarına zidd!

Trampın Yerusəlimi İsrailin paytaxtı elan etməsindən başlamış, qaradərili afrikalıları adam yerinə qoymaması barədə dediklərinə qədər hər addımı, ABŞ-a ancaq düşmən və nifrət qazandırır. Hətta məni qınamasalar, deyərdim ki, bu adam ABŞ-ın yeni Qorbaçovu rolunda çıxış edir. SSRİ-ni çökdürmək üçün Qərbin layihəsi olan Qorbaçovu, indi Ağ Ev-də D.Tramp əvəz edib elə bil. Taleyin və tarixin ironiyasına bir bax!. Onun Ağ Evə gətirilməsi kimin layihəsidirsə, açıq-aşkar siyasi alət kimi istifadə olunduğu gün kimi ortadadır...

Türkiyə ilə münasibətlər isə, əməllicə "dalana dirənib". Xüsusilə ABŞ-ın Türkiyəyə qənim kəsilən PKK-PYD qüvvələrinə açıq dəstək verməsi, bunu heç gizlətməməsi də, bu gərginliyi pik həddə çatdırıb. Artıq dünəndən başlayaraq, ABŞ Türkiyənin əsas düşmənlərindən olan PYD-nin 30 minlik silahlısını Türkiyə ilə sərhədə yığması, artıq Ağ Evin Ankara ilə "haqq-hesab çürütməyə" qərar verdiyini göstərir. Amma Türkiyənin "Ərəb baharı"ndakı qurbanlardan olmayacağı da gün kimi aydındır. Həm də bu əməliyyatın artıq geri dönüşünün də olmayacağı, Türkiyənin rəsmi Vaşinqton üçün əzəli müttəfiqdən əbədi rəqibə çevriləcəyi də real şəkildə gözlənilən məsələdir. Belə çıxır ki, D.Tramp dünya siyasətində ABŞ-ın maraqlarına məzarlıq qazan prezident kimi tarixə düşəcək.

# Məhəbbət İbrahimova: "Bu qərardan irəli gələn öhdəliklərlə bağlı hər bir Azərbaycan vətəndaşı Prezidentə dəstək olmalıdır"



"Ölkə başçımız Cənab İlham Əliyevin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" 2017-ci il 16 may tarixli Sərəncamı dövlətçilik tariximizdə çox mühüm yer tutan Azərbaycan Xalq Cümhuriyyətinin tarixinin öyrənilməsi və onun nailiyyətlərinin gənc nəslə çatdırılması istiqamətində atılan çox önəmli addımdır". Bu fikirləri Yeni Azərbaycan Partiyasının (YAP) Qadınlar Şurasının sədr müavini, YAP Nərimanov rayon təşkilatının Qadınlar Şurasının sədri Məhəbbət İbrahimova bildirib. Onun sözlərinə görə, ölkə başçımızın "Azərbaycan Xalq Cümhuriyyəti İli"ni elan etməsi bu yubileyə dövlət səviyyəsində çox böyük önəm verilməsinin bariz göstəricisi, tariximizə və keçmişimizə böyük ehtiramın nümunəsidir. Məhəbbət İbrahimova qeyd edib ki, müsəlman Şərqində ilk demokratik cümhuriyyət olan AXC ötən əsrin ikinci onilliyində Vətənimizin şanlı övladları tərəfindən çətinliklə də olsa, yaradılıb: "Həmin vaxt Azərbaycanda yaşayan bütün vətəndaşların hüquq bərabərliyi təmin olunub. Xüsusilə, qadınlara kişilərlə bərabər seçki hüququ verilib, irqi, milli, dini bərabərsizliklər ləğv edilib, Azərbaycanın ilk ali təhsil müəssisəsi - Azərbaycan Dövlət Universiteti, eləcə də, mühüm dövlət səhiyyə sistemi yaradılıb".

M.İbrahimova, həmçinin, bildirib ki, Ulu Öndər Heydər Əliyev də AXC-nin tarixinə, onun qurucularının fəaliyyətinə yüksək qiymət verib və O, hələ 1997-ci il mayın 27-də Azərbaycanın milli bayramı - Respublika Günü münasibətilə təşkil edilən təntənəli yığıncaqdakı nitqində vurğulayıb ki, cümhuriyyətin yaradılması Azərbaycan xalqının dövlətçiliyinin bərpasında, Azərbaycanın dövlət müstəqilliyi əldə etmək yolunda, demokratik quruluş yaratmaq istiqamətində tarixi rol oynayıb.

M.İbrahimova vurğulayıb ki, Azərbaycan xalqı AXC-nin 100 illiyini layiqincə qeyd etməyə ciddi hazırlaşır. "Bu qərardan irəli gələn öhdəliklərlə bağlı hər bir Azərbaycan vətəndaşı Prezidentə dəstək olmalıdır"-deyə qeyd edən M. İbrahimova, həmçinin bildirib ki, bütövlükdə, tarixi-siyasi, ictimai, mənəvi əhəmiyyət daşıyan və bütövlükdə cümhuriyyət dövrünün araşdırılmasında yeni səhifə açan bu Sərəncam və "Azərbaycan Xalq Cümhuriyyəti İli" çərçivəsində həyata keçiriləcək çoxsaylı tədbirlər xalqımızda, xüsusən, gənclərimizdə müstəqil dövlətçilik və vətən sevgisi hisslərinin artmasında mühüm rol oynayacaq.

**RÖVŞƏN**

# Qəhrəmanlıq tariximizin "20 Yanvar" səhifəsi

Yeni Azərbaycan Partiyası Yevlax rayon təşkilatı 20 Yanvar faciəsinin 28-ci ildönümü ilə bağlı Mədəniyyət Mərkəzi ilə birlikdə şəhidlərin xatirəsinə həsr olunmuş tədbir keçirib. Tədbir iştarakçıları əvvəlcə 20 Yanvar faciəsində həlak olmuş şəhidlərin əziz xatirəsini bir dəqiqəlik sükutla yad edilər. Sonra Qanlı Yanvardan bəhs edən film nümayiş olunub.




Tədbiri giriş sözü ilə Yevlax şəhər Mədəniyyət Mərkəzinin direktoru Eldəniz Mustafayev açaraq, hadisə haqqında ətraflı məlumat verib. Sonra Bərdə Regional Mədəniyyət və Turizm İdarəsinin nümayəndəsi Rafiq Məmmədov geniş məruzə edib. Çıxış edənlər bildiriblər ki, 20 Yanvar Azərbaycan xalqının tarixinə qanla yazılmış səhifələrdən biridir. Amma o müdhiş gecə tariximizə təkcə faciə kimi yox, həm də Azərbaycan xalqının mübarizlik və qəhrəmanlıq günü kimi daxil oldu.

Tədbirdə YAP Yevlax rayon təşkilatı idarə heyətinin üzvü Rafiq Əliyev çıxış edərək, bildirib ki, tariximizi təbliğ etmək, onu gələcək nəsillərə ötürmək bizim şərəf borcumuzdur. O, bu hadisəyə siyasi-hüquqi qiymət verilməsi kimi böyük missiyanı yerinə yetirmək üçün, sözün həqiqi mənasında, bir qəhrəmanlıq nümunəsi yaratmış Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti barədə ətraflı məlumat verərək, bildirib ki, bu cür tədbirlərin keçirilməsinin yeni nəslin milli ruhda tərbiyə olunmasında rolu böyükdür.

Tədbirdə çıxış edən 20 Yanvar faciəsinin iştirakçısı Cahid Nəbiyev və Fəridə Həsənova baş vermiş qətliam haqqında gördükləri hadisələri olduğu kimi diqqətə çatdırdılar. Onlar da, öz növbələrində, 20 Yanvar faciəsini Azərbaycan xalqına qarşı törədilən böyük bir cinayət kimi dəyərləndirdilər: "O məşum gecədə qətlə yetirilənlərin əksəriyyəti gənclər idi. Onları Azadlıq meydanına öz ölkələrini müstəqil və azad görmək arzuları gətirmişdi."

Tədbirdə iştirak edən 170 nəfərə YAP Yevlax rayon təşkilatı tərəfindən hazırlanmış 20 Yanvar faciəsini əks etdirən bukletlər paylanılıb.

**R.RƏSULOV**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

18 yanvar 2018-ci il

# Azərbaycanda korrupsiyaya qarşı kəsərli mübarizə tədbirləri ötən il də qətiyyətlə davam etdirilib



***Yanvarın 17-də Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən 2017-ci il ərzində korrupsiyaya qarşı mübarizə sahəsində görülmüş işlərlə bağlı kütləvi informasiya vasitələri və qeyri-hökumət təşkilatları nümayəndələrinin iştirakı ilə mətbuat konfransı keçirilib. AZƏRTAC xəbər verir ki, mətbuat konfransında çıxış edən baş prokurorun müavini - Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin rəisi Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə milli iqtisadiyyatın liberallaşdırılması və rəqabət qabiliyyətliliyinin yüksəldilməsi, şəffaflığın daha da artırılması və azad rəqabətin tam təmin olunması, daha yüksək hədəflərə nail olmaq üçün ölkədə aparılan islahatlara, inkişaf proseslərinə maneə törədən mənfi halların tam aradan qaldırılması, daha çevik və keyfiyyətli idarəetməni təmin edilməsi məqsədilə ardıcıl hüquqi və institusional islahatların 2017-ci ildə də uğurla həyata keçirildiyini bildirib.***

Bildirilib ki, bunun nəticəsində Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı və digər mötəbər beynəlxalq qurumlar Azərbaycanda gedən proseslərə yüksək qiymət verib. Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına əsasən, Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə 2017-ci ildə iki pillə irəliləyərək dünyada 35-ci yerdə qərarlaşıb. Dünya Enerji Şurasının ötən il üçün tərtib etdiyi "energetika trilemmasının indeksi" üzrə isə reytinqdə isə Azərbaycan bir sıra yeni sənayeləşmiş ölkələri geridə qoyaraq Yaponiyadan sonrakı 31-ci yerdədir. K.Əliyev xüsusi vurğulayıb ki, prokurorluq orqanları korrupsiya ilə mübarizəni öz fəaliyyətinin prioritet xətti kimi müəyyənləşdirib. Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi isə əvvəlki illərdə olduğu kimi, fəaliyyətini 2017-ci ildə də uğurla davam etdirib.

Diqqətə çatdırılıb ki, ötən il Baş İdarə tərəfindən vətəndaşların 7809 müraciətinə baxılıb, cinayət xarakterli 280 material araşdırılıb. Həmin materiallardan 181-i (65 faiz) üzrə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə cinayət işləri başlanıb. Habelə 99 (35 faiz) material üzrə digər prokuror təsir aktlarının tətbiqi təmin edilib.

Hesabat dövründə Baş İdarənin 161 saylı "Qaynar xətt" əlaqə mərkəzinə 4183 müraciət daxil olub. 2016-cı illə müqayisədə ötən il "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlərin sayı 1309 vahid (23,8 faiz) azalıb. Bu da "ASAN xidmət" mərkəzlərinin fəaliyyət dairəsinin genişlənməsi, göstərilən xidmət növlərinin sayının artması ilə əlaqədardır. "Qaynar xətt" əlaqə mərkəzinə daxil olmuş müraciətlər əsasında 23 cinayət işi başlanıb. Aidiyyəti dövlət qurumları ilə birgə görülmüş tədbirlər nəticəsində digər müraciətlərin müsbət həlli təmin edilib, vətəndaşların pozulmuş hüquqları bərpa olunub. Aşkarlanan qanun pozuntularının aradan qaldırılması məqsədilə müvafiq təşkilatlara təqdimatlar göndərilib.

Hesabat dövründə Baş İdarənin əməliyyat qurumları öz vəzifələrini uğurla icra ediblər. Onların keçirdikləri əməliyyat tədbirləri nəticəsində cinayət başında yaxalanmış şəxslər barəsində 5, habelə əməliyyat üsul və vasitələrindən istifadə etməklə korrupsiya hüquqpozmaları barədə əldə edilmiş məlumatlar əsasında 17 olmaqla, ümumilikdə 22 cinayət işi başlanıb.

K.Əliyev qeyd edib ki, ötən il Baş İdarədə dövlət və özəl sektorda çalışan 305 vəzifəli şəxs barəsində 214 cinayət işinin istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib. Məhkəmələrə göndərilmiş 305 şəxs barəsində 214 cinayət işindən 127 şəxs barəsində 83 iş qulluq mövqeyindən istifadə etməklə mənimsəmə və israf etmə, 67 şəxs barəsində 56 iş qulluq mövqeyindən istifadə etməklə dələduzluq, 35 şəxs barəsində 25 iş vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, 17 şəxs barəsində 7 iş rüşvət alma (passiv rüşvətxorluq), 19 şəxs barəsində 11 iş rüşvət vermə (aktiv rüşvətxorluq), 8 şəxs barəsində 7 iş vəzifə saxtakarlığı, qalanları isə digər korrupsiya cinayətləri ilə bağlı olub.

Məhkəmələrə göndərilmiş cinayət işləri üzrə 83 milyon 486 min manat ziyanın ibtidai araşdırma mərhələsində 27 milyon 575 min manatının (33,03 faizinin) ödənilməsi təmin edilib. Həmçinin qalan ziyanın ödənilməsini təmin etmək məqsədilə 15 milyon 381 min manat məbləğində əmlak üzərinə həbs qoyulması ilə yanaşı, qanunla nəzərdə tutulmuş digər tədbirlər görülüb. Hesabat dövründə Baş İdarə rəisi və digər vəzifəli şəxslər tərəfindən ümumilikdə 1635 vətəndaş qəbul edilib.

Bildirilib ki, ötən il korrupsiyaya qarşı mübarizə sahəsində Baş İdarənin əməkdaşları tərəfindən bir sıra qabaqlayıcı tədbirlər həyata keçirilib. Belə ki, 20 xüsusat üzrə inzibati pozuntu aşkarlandığından İnzibati Xətalar Məcəlləsinin 43-cü, 44-cü və 54-cü maddələrinin tələblərinə əsasən, inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərarlar qəbul edilərək baxılması üçün aidiyyəti üzrə dövlət orqanlarına göndərilib. Araşdırmalar nəticəsində yol verilmiş qanun pozuntularının aradan qaldırılması və gələcəkdə bir daha təkrar törədilməməsi üçün müxtəlif dövlət qurumları və vəzifəli şəxslərə göndərilən 88 təqdimat nəticəsində 53 vəzifəli şəxsin intizam məsuliyyətinə cəlb edilməsi təmin olunub.

K.Əliyev qeyd edib ki, insan hüquq və azadlıqlarının, onların layiqli həyat səviyyəsinin təmin olunmasını dövlətin ali məqsədi kimi bəyan edən Konstitusiyamızın ruhu ilə səsləşən dövlət siyasəti və reallaşdırılan islahatlar ədalət, qanunçuluq, hər kəsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi prinsipləri ilə yanaşı, humanizm prinsiplərinə də söykənir. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildə Azərbaycanda ölüm cəzasının icrasına moratorium qoyulması, 1998-ci ildə isə ölüm cəzasının ləğv edilərək cəzanın sistemindən çıxarılması, Prezident İlham Əliyev tərəfindən mütəmadi şəkildə imzalanan və indiyədək minlərlə insanı əhatə etmiş əfv sərəncamları, eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qəbul edilən və 40 minə yaxın insanı əhatə edən 4 amnistiya aktı humanizm dəyərlərinin dövlət siyasətinin təməllərindən olmasının əyani sübutlarındandır.

Hesabat dövründə - fevralın 10-da dövlətimizin başçısının imzaladığı "Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Sərəncam dövlət idarəçiliyinin əsas prinsiplərindən biri olan humanizm siyasətinə sadiqliyin və korrupsiyaya qarşı kəsərli mübarizəyə dair qətiyyətli siyasi iradənin növbəti bariz nümunəsi olub. Sənəddə Azərbaycan Respublikasının Prokurorluğuna edilmiş tövsiyələrdən irəli gələrək Sərəncamda əks olunmuş vəzifələrin icrası məqsədilə 2017-ci il 31 may tarixli əmrlə Baş Prokurorluq üzrə bir sıra əmrlərə dəyişikliklər edilib. Bu gün Baş İdarə dövlətimizin başçısı tərəfindən imzalanmış bu Sərəncama, həmin sənəddən irəli gələrək qanunvericiliyə edilmiş dəyişikliklərə uyğun olaraq korrupsiyaya qarşı mübarizə sahəsində öz fəaliyyətini davam etdirir.

Azərbaycan Respublikasının Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiyanın katibi Kamal Cəfərov bildirib ki, Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq standartlara cavab verən institusional, qanunvericilik və inzibati tədbirlər həyata keçirilib. "Açıq hökumətin təşviqinə dair 2016-2018-ci illər üçün Milli Fəaliyyət Planı" ötən il dövlət orqanları tərəfindən 86 faiz icra edilib. Milli Fəaliyyət Planının icra vəziyyəti ilk dəfə olaraq Elektron Monitorinq Sistemi ilə qiymətləndirilib və dövlət orqanlarının hesabatları hər bir bənd və dövlət orqanı üzrə onlayn rejimdə dəyərləndirilib.

"Elektron hökumət" portalına inteqrasiya olunan qurumların sayı 91-ə, elektron xidmətlərin sayı isə 437-yə çatdırılıb. İqtisadi sahədə törədilən cinayətlərə görə məsuliyyətin yüngülləşdirilməsi və dekriminallaşdırılması ilə əlaqədar Cinayət Məcəlləsinə dəyişikliklər edilib. Tikilməkdə olan və ya tikilmiş və istismara qəbul edilməmiş çoxmənzilli binalarda mənzillərin bir neçə şəxsə satılması kimi mənfi halların qarşısının alınması məqsədilə Mülki Məcəlləyə dəyişikliklər olunub. Etik davranış qaydalarının əhatə dairəsinin genişləndirilməsi ilə əlaqədar Milli Məclisin deputatlarının və bələdiyyə üzvlərinin etik davranış qaydaları haqqında qanunlar qəbul edilib. K.Cəfərov diqqətə çatdırıb ki, korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilən sistemli institusional islahatlar çərçivəsində "ASAN xidmət" mərkəzlərinin sayı 12-yə çatdırılıb və fəaliyyət istiqamətləri genişləndirilib. Bu günədək "ASAN xidmət" mərkəzlərinə 20 milyona yaxın müraciət daxil olub. Vətəndaş məmnunluğunun əmsalı 100 faizə yaxındır. Bütün dövlət xidmətlərinin "ASAN xidmət" standartlarına uyğunluğunu yoxlamaq məqsədilə dövlət orqanlarının xidmətləri "ASAN xidmət indeksi"ni təşkil edən parametrlər üzrə qiymətləndirilib. İndeksin nəticələri, mövcud problemlər və onların təkmilləşdirilməsi istiqamətində təkliflər aidiyyəti dövlət orqanlarına verilib. Korrupsiyanın qarşısının alınması sahəsində il ərzində sistemli təlim və maarifləndirmə tədbirləri həyata keçirilib. Avropa Şurası və Avropa İttifaqı ilə birgə əməkdaşlıq şəraitində dövlət qulluqçuları və tələbələr üçün etik davranış qaydaları və antikorrupsiya mövzuları üzrə tədris proqramı hazırlanıb, yerli təlimçi bazası formalaşdırılıb, regionlarda müxtəlif hədəf qrupları üçün təlimlər keçirilib.

Komissiyanın katibi "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair 2017-2019-cu illər üçün Milli Fəaliyyət Planı"na müvafiq olaraq dövlət orqanlarının bu sahədə fəaliyyətlərinin effektiv əlaqələndirilməsini təmin edən mexanizmin yaradılması, qanunvericiliyin beynəlxalq standartlara tam uyğunlaşdırılması, institusional potensialın və hesabatlılıq sisteminin gücləndirilməsi sahələrində mühüm nailiyyətlərin əldə edildiyini vurğulayıb.

Tədbirdə iştirak edən qeyri-hökumət təşkilatlarının nümayəndələrindən "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev və "Şəffaflıq Azərbaycan" təşkilatının icraçı direktoru Rəna Səfərəliyeva çıxışlarında korrupsiyaya qarşı mübarizə sahəsində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin 2017-ci il ərzində gördüyü işləri müsbət dəyərləndiriblər. Mətbuat konfransında bildirilib ki, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq əməkdaşlığın zəruriliyi nəzərə alınaraq hesabat dövründə Baş İdarə tərəfindən bu sahədə ixtisaslaşmış beynəlxalq qurumlar və digər ölkələrin müvafiq hüquq mühafizə orqanları ilə əlaqələrin daha da genişləndirilməsinə xüsusi diqqət yetirilib. Belə ki, iyunun 6-dan 7-dək Azərbaycan Hökumətinin dəstəyi ilə Bakıda üzvlərinin böyük əksəriyyəti İslam dövlətlərindən olan İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO) üzv dövlətlərin prokurorluq, ixtisaslaşdırılmış korrupsiyaya qarşı mübarizə qurumları rəhbərlərinin və ombudsmanlarının üçüncü iclası keçirilib. Yüksək səviyyəli tədbirə ölkəmizlə yanaşı, Türkiyə, İran, Qazaxıstan, Pakistan, Əfqanıstan, Qırğızıstan, Özbəkistan, Tacikistan və Türkmənistanın dövlət qurumlarının, eləcə də ECO, Beynəlxalq Anti-Korrupsiya Akademiyasının (IACA) rəhbər vəzifəli şəxsləri qatılıblar. Tədbirdə Baş İdarə rəisi, digər yerli və xarici nümayəndələr hesabat məruzələri ilə çıxış ediblər. Konfrans çərçivəsində Türkiyə, Pakistan, İran və digər dövlətlərin nümayəndə heyətlərinin rəhbərləri ilə ikitərəfli görüşlər keçirilib. Tədbirin sonunda ECO-ya üzv dövlətlərdə korrupsiyaya qarşı mübarizəyə dair Bakı Bəyannaməsi qəbul edilib.

Bildirilib ki, oktyabrın 9-11-də Baş İdarənin inzibati binasında Azərbaycan Respublikası Prokurorluğunun və Beynəlxalq Prokurorlar Assosiasiyasının, həmçinin Avropa İttifaqı və Avropa Şurasının birgə təşkilatçılığı ilə kibercinayətkarlıqla mübarizəyə dair konfrans keçirilib. Konfransda Şərqi Avropa, Balkan regionu və Mərkəzi Asiya ölkələrinin hüquq mühafizə orqanlarının 50-dək əməkdaşı, beynəlxalq ekspertlər, Beynəlxalq Prokurorlar Assosiasiyasının rəsmi şəxsləri, həmçinin ölkəmizin hüquq mühafizə orqanları nümayəndələri iştirak ediblər. Tədbirdə kibercinayətlər və informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə törədilən çirkli pulların yuyulması və digər cinayətlərin ibtidai istintaqı və cinayət təqibi, elektron sübutların əldə edilməsi, ortaya çıxan problemlər və onların həlli yolları və s. mövzular müzakirə olunub.

Qeyd edilib ki, Azərbaycan Respublikası Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun (QREKO) 3-cü dəyərləndirmə raundunu tamamlayıb. Avropa Şurasının MONEYVAL Komitəsinin sentyabrın 25-29-da keçirilən plenar iclasında dördüncü raund qiymətləndirilməsi ilə əlaqədar Azərbaycan üzrə tərəqqi hesabatı qəbul edilib. Hesabatda ölkəmizdə bu sahədə əhəmiyyətli irəliləyişin olması qeyd edilib. Bundan başqa, fevralın 20-də Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin inzibati binasında İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin İstanbul Fəaliyyət Planının IV Monitorinq Raundu çərçivəsində ölkəmiz üzrə qəbul edilmiş hesabat təqdim olunub.

Həmçinin oktyabrın 25-27-də həmin beynəlxalq təşkilatın Azərbaycan Respublikası Prokurorluğu və Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya ilə birgə təşəbbüsü əsasında Baş İdarənin inzibati binasında keçirilmiş OECD-nin Şərqi Avropa və Mərkəzi Asiya üçün Anti-Korrupsiya Şəbəkəsinin (ACN) Hüquq Mühafizə Orqanları Şəbəkəsinin "Korrupsiya cinayətlərinin istintaqı və cinayət təqibi: cinayət yolu ilə əldə edilmiş gəlirlərin müsadirəsi, əmlakın bərpası və prokurorların müstəqilliyi" mövzusunda beynəlxalq konfransına Şərqi Avropa və Mərkəzi Asiya regionundakı 20-dən artıq ölkənin korrupsiyaya qarşı mübarizə üzrə ixtisaslaşmış qurumlarının rəhbər şəxsləri, bilavasitə korrupsiya cinayətlərinin istintaqı və cinayət təqibini həyata keçirən müstəntiq və prokurorlar, antikorrupsiya məsələləri üzrə ixtisaslaşmış beynəlxalq ekspertlər, OECD-nin rəsmiləri, eləcə də ölkəmizin hüquq mühafizə orqanlarının nümayəndələri olmaqla 70-dən artıq iştirakçı qatılıb.

Tədbir çərçivəsində Baş İdarənin əməkdaşları tərəfindən keçirilən təqdimatlarda ölkəmizin bu sahədə əldə etdiyi müsbət iş təcrübəsi diqqətə çatdırılıb. Bununla yanaşı, təmsilçilərimizlə Latviya, Rumıniya, Ukrayna və digər ölkələrin nümayəndə heyətləri arasında ikitərəfli görüşlər keçirilib. Baş İdarə tərəfindən ibtidai istintaqı aparılan cinayət işləri üzrə qarşılıqlı hüquqi yardımla bağlı sorğuların icra vəziyyəti və əməkdaşlıq məsələləri müzakirə edilib. Bundan başqa, Avropa İttifaqının Avropa Qonşuluq Siyasətinin "Şərq tərəfdaşlığı" və TAİEX (Texniki Yardım və İnformasiya Mübadiləsi) aləti çərçivəsində, Korrupsiyaya Qarşı Avropa Tərəfdaşları Təşkilatı (EPAC) və Korrupsiyaya Qarşı Avropa Əlaqələndiricilər Şəbəkəsi (EACN), Avropa Şurasının Korrupsiyaya Qarşı Mübarizə Aparan Dövlətlər Qrupu (GRECO), Beynəlxalq Prokurorlar Assosiasiyası (IAP), Beynəlxalq Anti-Korrupsiya Akademiyası (IACA), Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilat (GUAM) və digər qurumlarla səmərəli əməkdaşlıq davam etdirilib. Bildirilib ki, hesabat dövründə Baş İdarə tərəfindən korrupsiyaya qarşı mübarizə sahəsində ixtisaslaşmış beynəlxalq təşkilatlarla yanaşı, bu sahədə qabaqcıl və müsbət təcrübəyə malik ölkələrin ixtisaslaşmış antikorrupsiya qurumları ilə də ikitərəfli səmərəli əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində zəruri tədbirlər görülüb. Belə ki, Azərbaycanın və Bolqarıstanın Baş prokurorluqları arasında imzalanmış, Baş İdarənin və "ASAN xidmət"in fəaliyyətlərinin öyrənilməsini nəzərdə tutan birillik birgə fəaliyyət planına uyğun hər iki ölkə prokurorluqlarının nümayəndə heyətlərinin qarşılıqlı işgüzar səfərləri olub.

Bununla yanaşı, ötən il Bolqarıstan Respublikasının baş prokuroru Sotir Tsatsarovun rəhbərliyi ilə nümayəndə heyətinin ölkəmizə işgüzar səfəri zamanı nümayəndə heyəti dövlətimizin başçısı İlham Əliyev tərəfindən qəbul edilib. Görüş çərçivəsində ölkələrimizin hüquq mühafizə orqanları arasında əməkdaşlıq əlaqələrinin gücləndirilməsinin münasibətlərimizin gələcək inkişafına müsbət töhfə verməsi bildirilib. Diqqətə çatdırılıb ki, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən korrupsiyaya qarşı mübarizədə qeyri-hökumət təşkilatları ilə sıx münasibətlərin qurulmasına xüsusi önəm verilib. Baş İdarənin fəaliyyəti, bu sahədə son vaxtlar qəbul edilmiş qanunvericiliyin tələbləri, beynəlxalq əməkdaşlıq nəticəsində həyata keçirilən tədbirlər, həmin tədbirlərin reallaşmasında dövlət qurumlarının və vətəndaş cəmiyyətinin rolu və digər mühüm məsələlər ilə əlaqədar Baş İdarə əməkdaşlarının KİV-lərdə məqalələri dərc edilib. Tədbirdə Prezident İlham Əliyevin ölkəmizdə həyata keçirilən quruculuq işlərinə, iqtisadi, sosial və siyasi sahədə aparılan islahatlara kölgə salan, habelə əhalinin haqlı narazılığına səbəb olan rüşvətxorluq və korrupsiya kimi mənfi təzahürlərə qarşı daha ciddi mübarizə aparılması sahəsində verdiyi göstərişlərə uyğun olaraq, korrupsiya hüquqpozmalarını doğuran səbəb və şəraitin müəyyən edilməsi və cinayətlərin qarşısının alınması istiqamətində Baş İdarə tərəfindən bundan sonra da sistemli, ardıcıl və qətiyyətli mübarizə tədbirlərinin davam etdiriləcəyi xüsusi vurğulanıb. Sonda QHT və KİV nümayəndələrinin sualları ətraflı cavablandırılıb.



# KİV nümayəndələri ADU-da imtahan prosesini izləyib



Dünən Azərbaycan Dillər Universitetində (ADU) 2017-2018-ci tədris ilinin payız sessiyasının gedişatını izləmək məqsədilə KİV nümayəndələrinin iştirakı ilə media tur təşkil olunub. SİA-nın xəbərinə görə, media turda "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, "525-ci" qəzetin baş redaktoru Rəşad Məcid, "Kaspi" qəzetinin baş redaktoru İlham Quliyev, internet saytların rəhbərləri və digərləri iştirak ediblər. Media turdan öncə jurnalistlərin suallarını cavablandıran universitetin Tədris işləri üzrə prorektoru, professor Əfqan Abdullayev bildirib ki, imtahanlar 2017-ci ilin dekabrın 29-dan başlayıb, əyani şöbədə cari ilin fevralın 5-nə, qiyabi şöbədə isə fevralın 8-dək davam edəcək: "6500 tələbənin hər biri 5 imtahan verməklə ümumilikdə 30 min imtahan keçiriləcək. 3 binadan ibarət olan ADU-da imtahanlar yazılı şəkildə olmaqla iki növbədə təşkil olunur. Ali təhsil ocağı 770 professor-müəllim heyəti daxil olmaqla 1200 işçiyə malikdir".

Daha sonra Media nümayəndələri imtahan otaqlarında olub, imtahan prosesini izləyiblər. Media-turdan sonra KİV nümayəndələri ADU-nun rektoru, AMEA-nın həqiqi üzvü, əməkdar elm xadimi Kamal Abdulla ilə görüşüblər. Rektor qonaqlara media-turda iştirak etdiklərinə görə təşəkkürünü bildirib, müasir medianın tanınmış nümayəndələrinin imtahan prosesində iştirakının tələbələr üçün də yaddaqalan olacağına əminliyini ifadə edib. Rektor daha sonra universitetin tədris prosesi və beynəlxalq əlaqələri, ali təhsil müəssisəsində fəaliyyət göstərən elmi-tədqiqat laboratoriyaları, tədris olunan dillər, həyata keçirilən layihələr barədə ətraflı məlumat verib. O, media mənsubları ilə universitet arasında əməkdaşlığın mahiyyətindən söz açaraq bu əlaqələrin davamlı olmasının əhəmiyyətini vurğulayıb. KİV nümayəndələri görüş zamanı imtahan prosesinin təşkili və gedişatı ilə bağlı razılıqlarını ifadə edərək, bu cür turların keçirilməsinin universitetlə cəmiyyət arasında sağlam münsaibətlərin formalaşmasında mühüm olduğunu diqqətə çatdırıblar. Bildirilib ki, imtahanların gedişatında obyektivlik və şəffaflıq təmin olunub, sessiya normativ sənədlərə uyğun və qərəzsiz keçirilib.

Qeyd edək ki, imtahan sessiyası mövcüd normalara uyğun təşkil olunub. Sessiyanın beynəlxalq təcrübəyə əsaslanması və otaqların imtahan başlanana qədər materialla təchiz edilməsi, sessiya dövründə fənn müəllimlərinin və imtahan nəzarətçilərinin müvafiq izahat işləri aparması, eyni zamanda sessiyanın obyektiv qaydalara uyğun keçirilməsinə kömək etmək məqsədi ilə tələbə təşkilatlarının imtahanın keçirilməsində iştirakı təmin edilib. Məlumat üçün nəzərinizə çatdıraq ki, ADU-da 2017-2018-ci tədris ilinin payız semestrinin imtahan sessiyasının müvafiq təlimatlara və əsasnamələrə uyğun keçirilməsini təmin etmək məqsədilə imtahan sessiyası dövründə yarana biləcək neqativ halları dərhal araşdırmaq və müvafiq tədbirlər görmək, habelə sessiyanın şəffaf, normativ sənədlərə uyğun keçirilməsinə kömək məqsədilə Operativ Qərargah fəaliyyət göstərir.

# Səbaildə 20 Yanvar şəhidlərinin xatirəsinə dualar oxunacaq və ehsanlar veriləcək

*20 Yanvar faciəsindən artıq 28 il ötür. Xalqımızın qan yaddaşına yazılmış bu tarixi faciə, ölkəmizin hər yerində olduğu kimi, paytaxtın Səbail rayonunun idarə və təşkilatlarında, ali və orta təhsil müəssisələrində geniş qeyd olunur. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbərinin "20 Yanvar faciəsinin iyirmi səkkizinci ildönümünün keçirilməsinə dair tədbirlər planı haqqında" sərəncamına əsasən, Səbail rayon icra hakimiyyəti tərəfindən müvafiq tədbirlər hazırlanmış və bu plana uyğun olaraq, rayonun idarə və təşkilatlarında, ali və orta təhsil müəssisələrində tədbirlər keçirilir, rayondakı muzey və sərgi salonlarında müxtəlif sərgilər təşkil olunur. Orta və ali təhsil müəssisələrinin şagird və tələbələrinin "Şəhidlər Xiyabanı"na ziyarəti təşkil olunur. Yanvar ayının 19-da rayondakı bütün təhsil müəssisələrində keçirilən birinci dərslər Qanlı Yanvar faciəsinə həsr ediləcəkdir.*



Səbail rayon icra hakimiyyətinin təşəbbüsü ilə, hər il olduğu kimi, rayon rəhbərliyi, respublika "20 Yanvar" cəmiyyəti", Sosial Müdafiə Fondu, Məşğulluq Mərkəzi və rayonun ictimai təşkilatlarının nümayəndələrinin iştirakı ilə rayonda yaşayan 20 Yanvar şəhidlərinin ailələri və faciə zamanı əlil olmuş rayon sakinləri ilə rayon icra hakimiyyətində görüş keçirilib.

Tədbirdə çıxış edən Səbail rayon icra hakimiyyəti başçısının müavini Eldar Ağayev qeyd edib ki, bu faciə xalqımızın qan yaddaşında əbədi həkk olunub. Keçmiş Sovet ordusu qarşısına silahsız, əliyalın çıxaraq, canlarından keçən 20 Yanvar şəhidləri müasir tariximizin qəhrəmanları olublar: "Ümummilli Liderimiz Heydər Əliyev hər zaman 20 Yanvar faciəsi zamanı şəhid olanların ailələri, əlil olmuş vətəndaşlarımıza diqqət və qayğısını əsirgəməmişdir. Onun səyləri ilə faciə qurbanlarının ailələri və 20 Yanvar əlilləri dövlət tərəfindən hər cür diqqət və qayğı ilə əhatə olunmuşlar. Eldar Ağayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ölkəmizin azadlığı və müstəqilliyi uğrunda şəhid olmuş və sağlamlığını itirmiş şəxslərə qayğının hər zaman diqqət mərkəzində olduğunu, onlara verilən təqaüd və müavinətlərin artırıldığını və bu artımın gələcəkdə də davam olunacağı qeyd edilmişdir".

Görüşdə şəhid ailələri və 20 Yanvar əlillərinin məişət qayğıları və problemləri ilə maraqlanılıb, bir çox sualların həlli ilə bağlı müvafiq qurumlara tapşırıqlar verilib. Şəhid ailələri və əlillər adından çıxış edənlər onlara olan diqqət və qayğıya görə ölkə başçısı Cənab İlham Əliyevə öz minnətdarlıqlarını bildiriblər.

Tədbirin sonunda RİH tərəfindən şəhid ailələri və əlillərə maddi yardım göstərilib və ərzaq bağlamaları təqdim olunub. Tədbirdə, həmçinin, qeyd edilib ki, yanvarın 20-də rayondakı Bibiheybət ziyarətgahında və İçərişəhərdəki "Cümə məscidi"ndə şəhidlərin xatirəsinə dualar oxunacaq və ehsanlar veriləcək.

**Rövşən RƏSULOV**

# Binəqədidə Rumıniya Mədəniyyəti Günü ilə bağlı tədbir keçirilib



*Binəqədi rayonu ərazisində yerləşən dahi rumın bəstəkarı Corc Enesku adına Parkda Rumıniyanın Mədəniyyəti Günü ilə bağlı tədbir keçirilib. Mədəniyyət günü Rumıniyanın xalq şairi Mihai Emineskunun dünyaya gəlməsi ilə eyni gündə keçirilir. Bu tarixin Rumıniyanın Mədəniyyət Günü kimi seçilməsində xüsusi önəm var. Belə ki, Mihai Eminesku müasir rumın dilinin inkişafına verdiyi önəmli töhfələrə görə, Rumıniya mədəniyyətinin "dan ulduzu" adlandırılaraq, əsas simvol hesab olunur.*

Tədbirdə Binəqədi rayon icra hakimiyyəti başçısının müavini Aygün Əliyeva, Rumıniya dövlətinin ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri Dan İanku, Moldova dövlətinin ölkəmizdə fövqəladə və səlahiyyətli səfiri George Leuke, Binəqədi rayon icra hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Elman Dadaşov, rayon bələdiyyəsinin əməkdaşları və səfirliyin nümayəndələri iştirak edib.

Tədbirdə öncə, Rumıniya və Azərbaycan Respublikalarının Dövlət himnləri səsləndirilib. Sonra tədbir iştirakçıları tanınmış rumın bəstəkarı Corc Enescunun Bakının Binəqədi rayonunda yerləşən abidəsi qarşısına əklil və çiçəklər qoyublar.

Tədbiri açıq elan edən Rumıniyanın Azərbaycandakı səfiri Dan İanku çıxışında tədbir iştirakçılarına tədbirin mahiyyətini izah edərək, iki ölkə arasında olan dostluq münasibətlərindən danışıb. O bildirib ki, Azərbaycanda Rumıniya Mədəniyyəti Gününün keçirilməsi iki dövlət arasında humanitar əlaqələrin inkişafı üçün böyük əhəmiyyətə malikdir. Səfir, o cümlədən, yüksək səviyyəli təşkilatçılığa görə Binəqədi rayon icra hakimiyyətinə öz təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən Binəqədi rayon icra hakimiyyəti başçısının müavini Aygün Əliyeva, iki ölkə arasında olan dostluq münasibətlərindən danışaraq, bu formada olan mədəni tədbirlərin vacibliyini, ölkələrimizin müxtəlif sahələrdə sıx əməkdaşlığını, xalqlarımızın uzun illərdir dostluq etdiyini, birbirinin mədəniyyətinə və ənənələrinə hörmətlə yanaşdıqlarını qeyd edib.

Çıxışlardan sonra şairə, Rumıniya səfirliyinin əməkdaşı Fəridə Hacıyeva Corc Eneskunun Azərbaycan dilinə tərcümə etdiyi şeirləri səsləndirib.

Son olaraq, abidənin önündə xatirə fotosu çəkdirilib.

**ZÜMRÜD**

# Masallıda 20 Yanvar şəhidlərinin əziz xatirəsinə həsr olunmuş idman tədbiri keçirilib



*Dünən YAP Masallı rayon təşkilatı və Masallı rayon gənclər və idman idarəsinin birgə təşkilatçılığı ilə 20 Yanvar şəhidlərinin əziz xatirəsinə həsr olunmuş "Sərbəst güləş" idman növü üzrə uşaqlar, yeniyetmələr və gənclər arasında rayon birinciliyi keçirilmişdir. 20 Yanvar şəhidlərinin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edildikdən sonra, YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev giriş nitqi söyləmiş, 20 yanvar hadisələrinin mahiyyətindən danışmışdır.*

Seyfəddin Əliyev Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə, eləcə də, idman sahəsində aparılan uğurlu islahatlar haqda yarış iştitakçılarına məlumat verimişdir. Turnirin yekununda qaliblərə YAP Masallı rayon təşkilatı tərəfindən diplomlar, medallar və qiymətli hədiyyələr verilmişdir.

**NƏZAKƏT**

# Qlobal güclərin görüşü üçün Bakının məkan kimi seçilməsi Azərbaycanın qələbəsidir



**NATO-nun Avropada Birləşmiş Silahlı Qüvvələrinin Ali Baş Komandanı, general Kertis Skaparrotti Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general Valeriy Gerasimovla görüşü planlaşdırılır. Bu barədə "BuzzFeed" portalı adı çəkilməyən ABŞ və Avropanın vəzifəli şəxslərinə istinadən məlumat yayıb. Məlumata əsasən, görüş yanvar ayında Bakıda keçiriləcək.**

Qeyd edək ki, ötən ilin fevralında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov və ABŞ Silahlı Qüvvələrinin qərargah rəisləri komitəsinin sədri Cozef Danfordun görüşü də, məhz Bakıda keçirilib. Sentyabrda isə, Valeri Gerasimov Bakıda NATO Hərbi Komitəsinin rəhbəri Petr Pavel ilə görüşüb. Sözügedən iki görüş üçün niyə, məhz Bakının seçilməsinə gəlincə, hələ o zaman "Nyu-York Times" qəzeti yazmışdı ki, görüş yerinin seçimi asan olmayıb və Rusiya tərəfi C. Danfordun Rusiyanın paytaxtı Moskvaya, yaxud Belarusa gəlməsini təklif edib. Pentaqon isə görüşün Qərbi Avropada keçirilməsinə üstünlük verib. Lakin Avropa İttifaqının V.Gerasimov barəsində Avropaya səfəri qadağan edən sanksiyası olduğundan, nəticədə, son olaraq, görüş üçün Bakı neytral məkan kimi seçilib.

## Azərbaycan bütün dünyada sülh və stabillik tərəfdarı kimi dəyərləndirilir

Azərbaycan NATO-nun üzvü olmadığı halda və hətta Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına da üzv deyilisə, belə olduğu təqdirdə, bəs nəyə görə görüş üçün, məhz Azərbaycan-Bakı seçildi? Ona görə ki, Azərbaycan beynəlxalq nüfuza malik olan dövlətdir. ABŞ, Avropa və qonşularımız, Rusiya ilə çox yaxşı münasibətləri olan, onların hörmət bəslədiyi ölkədir. Sözsüz ki, bu görüş təkcə regionda deyil, həm də daha geniş miqyasda Azərbaycanın sabitləşdirici amil kimi rolunun artması deməkdir.

Beynəlxalq münasibətlər üzrə amerikalı ekspert Peter Tase hələ sentyabr ayında keçirilən görüş barədə bildirmişdi ki, Bakıda Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov və NATO Hərbi Komitəsinin rəhbəri Petr Pavel ilə görüş Azərbaycanın sülh və xalqlar arasında dialoqa böyük töhfə verdiyini göstərir. Amerikalı ekspertin fikrincə, Bakı son onilliklər ərzində, iri çoxtərəfli müzakirələrin və razılaşmaların aparıldığı bir çox Avropa şəhərlərini xatırladır və təəccüblü deyil ki, Azərbaycan iki dəfə ABŞ, NATO və Rusiya hərbi liderlərinin görüşünün məkanı seçilib. P.Tase, öz ərazisinin 20 faizi ermənilər tərəfindən işğal edilməsinə baxmayaraq, Azərbaycanı bütün dünyada sülh və stabillik tərəfdarı kimi dəyərləndirir və xüsusilə, vurğulayır ki, iki dəfə ABŞ, NATO və Rusiya hərbi liderlərinin görüş məkanı olmaqla, Azərbaycan son on ildə öz balanslı siyasəti, iqtisadi inkişafı və yoxsulluqla uğurlu mübarizə siyasəti ilə fərqlənir.

Azərbaycan bir çox sahələrdə beynəlxalq əməkdaşlıq və dialoq platforması kimi özünü təsdiqləyib və bu ilin yanvar ayı üçün NATO və Rusiya generallarının üçüncü görüşünün də Bakıda keçiriləcəyi artıq təəccüb doğurmur. Bakının növbəti dəfə qlobal güc mərkəzlərinin hərbi rəhbərliyinin görüşü üçün məkan kimi seçilməsinin başqa səbəbi, Azərbaycanın həm coğrafi mövqeyinə, həm də dövlətimizin yürütdüyü siyasətin prioritetlərinə görə Şərqlə Qərb arasında körpü rolunu oynayan dövlət olmasıdır. Etiraf edilməlidir ki, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən enerji və nəqliyyat dəhlizləri layihələri ölkəmizin bu statusunu daha da möhkəmləndirib. Ələlxüsus, xüsusilə, vurğulanmalıdır ki, belə mühüm görüşlərin Bakıda keçirilməsinin ən əsas səbəblərindən biri də Azərbaycan liderinin, Prezident İlham Əliyevin şəxsi nüfuzu və dövlətimizin regional və qlobal proseslərdə aktiv rol alması ilə bağlıdır.

## Bakının qlobal güclərin görüş yeri seçildiyi təqdirdə, ABŞ Dövlət Departamentinin mövqeyi ikili standartları təsdiq edir

Göründüyü kimi, Azərbaycan dəfələrlə qlobal miqyasda nəzərdə tutulan beynəlxalq tədbirlərdə ev sahibi kimi qəbul olunur və seçilir. Bu seçimin də doğru olduğu hər dəfə öz təsdiqini tapır. Lakin bəzən ölkəmizə qarşı istər xristian həmrəyliyi, istərsə də lobbiçilik fəaliyyətinin təsiri ilə, ermənipərəst qüvvələrin təşəbbüsü ilə müxtəlif qarayaxma kampaniyaları həyata keçirilir və nüfuzdan salmaq üçün hər hansı ədalətsiz davranışa belə yol verilir. Məsələn, son vaxtlar ABŞ Dövlət Departamentinin amerikalı turistlərin xarici ölkələrə səfəri zamanı təhlükəsizlik riskləri haqqında məlumatlandırılması üçün yeni sistem işə salması və ölkəmizi amerikalı turistlərin təhlükəsizliyinə risk olan dövlətlər arasında ikinci kateqoriya ölkələr siyahısına daxil etməsi, bu ədalətsizliyin nümunəsi kimi qeyd oluna bilər. Azərbaycanın I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, "Formula-1" yarışları, mədəniyyətlər və dinlərarası dialoq forumları, digər yüksək səviyyəli siyasi, iqtisadi, idman və mədəniyyət xarakterli mötəbər tədbirlərə, o cümlədən, ABŞ və Rusiya Baş qərargah rəislərinin, NATO hərbi komitəsinin rəhbərinin və Rusiya Baş qərargah rəisinin görüşləri kimi tədbirlərə ev sahibliyi etdiyi halda, ABŞ Dövlət Departamentinin belə bir açıqlaması çox təəccüb doğurur. Sadalanan mötəbər tədbirlərə Azərbaycanın ev sahibliyi etməsi ölkəmizdə mövcud olan sabitlik, təhlükəsizlik və ictimai asayişin yüksək səviyyədə təmin olunmasının əyani təsdiqi olduğu təqdirdə, belə bir mövqe nümayiş etdirilməsi yenə də ikili standartların tətbiqindən xəbər verir. Bölgədə təhlükəsizliyin təminatçısı, iqtisadi bağlılıq yaradan Azərbaycan Qafqazın lider dövləti, nüfuzlu ölkəsi kimi təhlükəsizliyi daim nəzarətdə saxladığı halda, Bakının bir il ərzində üçüncü dəfə qlobal güclərin hərbi rəhbərliyinin görüşü üçün məkan kimi seçildiyi təqdirdə, ABŞ Dövlət Departamentinin Azərbaycanın təhlükəlilik dərəcəsini 1-dən 2-yə qaldırması bir təzad təşkil edir. Bu fakt, həm də onu sübut edir ki, ABŞ Dövlət Departamenti Azərbaycana çox haqsız münasibət göstərir və ölkəmiz terror üçün əlverişli zəmin olan ölkələrdən deyil. Eyni zamanda, qlobal güclərin hərbi rəhbərliyinin görüşü üçün Bakının məkan kimi seçilməsi, əslində, Azərbaycanın, nəinki erməni lobbisi, hətta Qərb üzərində qələbəsindən, möhkəmlənmiş mövqeyindən və nüfuzundan xəbər verir. Bu, həm də ondan xəbər verir ki, beynəlxalq təşkilatlar, nüfuzlu dövlətlər və qlobal güclər Azərbaycanın haqlı mövqeyini, uğurlu siyasətini və nüfuzunu etiraf etmək məcburiyyətindədirlər.

*İnam HACIYEV*

# Türkiyə parlamentində 20 Yanvar faciəsindən danışılıb

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Necdet Ünüvar Türkiyə Böyük Millət Məclisində (TBMM) 20 Yanvar faciəsinin 28-ci ildönümü ilə əlaqədar bəyanatla çıxış edib. AZƏRTAC xəbər verir ki, N.Ünüvar 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qanunsuz qoşun yeritməsindən və bu hadisənin acı nəticələrindən danışıb. O vurğulayıb ki, Türkiyə xalqı bu faciənin acılarını Azərbaycan xalqı ilə bölüşür. TBMM-nin iclasında Azərbaycanın Türkiyədəki səfiri Xəzər İbrahim də iştirak edib.




# Harlem Dezir Qərbin sifarişini yerinə yetirir

***Zaman-zaman bir sıra qərəzli və məkrli mövqeləri ilə seçilən xarici təşkilatlar, QHT-lər və fondlar Azərbaycanda söz və mətbuat azadlığı sahəsində əldə olunan uğurlara kölgə salmağa xidmət edən hesabatlar yayırlar. Bu günlər mötəbər qurum kimi dəyərləndirilən ATƏT-in media azadlığı üzrə ofisinin rəhbəri Harlem Dezir də eyni qərəzli açıqlama ilə çıxış edib. Söhbət etdiyimiz müsahiblərimiz səslənən fikirlərli Qərbin demokratik institutlarının Azərbaycana qarşı növbəti qərəzi kimi qiymətləndirdilər.***

## İnsan Hüquqları XXI əsr Fondunun sədri Şahin Camalov:

- ATƏT-in media azadlığı üzrə ofisinin rəhbərinin, ABŞ Dövlət Departamentinin Azərbaycanla bağlı səsləndirdiyi fikirlər və yaydıqları məlumatlar reallığı özündə əks etdirmir. Bütün bunları ikili standartlardan irəli gəlir. Çünki xaricdə olan bəzi qüvvələr Azərbaycanda gedən inkişafdan narahatçılıq hissi keçirir və heç bir əsası olmayan yalan iddialar irəli sürməyə başlayır. Ümumiyyətlə, bütün dünya ölkələri Azərbaycan dövlətinin necə olduğunu çox gözəl bilirlər. Yəni ölkəmizdə insan hüquq və azadlıqları ən yüksək səviyyədə təmin olunur. Azərbaycanda olan mövcud demokratik vəziyyət heç də dünyanın aparıcı ölkələrindən geri qalmır. Ümumiyyətlə, insan hüquqları ilə bağlı onların iddia etdikləri nədir? Bu gün Azərbaycanda 24 saat istənilən insan küçədə rahat və sərbəst şəkildə gəzə bilir. Azərbaycanda hazırda qanunvericilik bazası dünyanın ən mütərəqqi bazasından hesab olunur. Yəni onlar insan hüquqları pozulması deyəndə, nəyi nəzərdə tuturlar? Absurd fikirlərlə hər hansı mənşəyi məlum olmayan internet resurslardan istifadə etmək və ya da özlərinin yaratdıqları hər hansı bir saytda çıxış etmək və fikirlər yaymaq pozuculuğa xidmət edən məsələdir. Buna Azərbaycan xalqı öz qətiyyətli mövqeyi ilə sərt münasibətini bildirir.

## Korrupsiyaya qarşı Mübarizə Fondunun icraçı direktoru Vasif Mövsümov:

- Bildiyiniz kimi, bu il prezident seçkiləri ilidir. Seçkilər öncəsi də xaricdə olan bəzi qüvvələr Azərbaycan haqqında ikili standartlardan çıxış edir və təxribat xarakterli məlumatlar yayırlar. Çünki xaricdə olan həmin qüvvələr seçki öncəsi ölkəmizdə nə isə xoşagəlməz bir halın yaranmasında maraqlıdırlar. Biz çox gözəl bilirik ki, bu qurumlara və təşkilatlara kimlər "donos"lar ötürürlər. Təbii ki, Qərbin Azərbaycana qarşı bugünkü tutduğu qərəzli mövqeyinə uyğun şəxslər və təşkilatlar yönəldir. Azərbaycanda baş verən hər bir hadisə bizim gözümüzün qarşısındadır. İctimai rəyin, mütəmadi olaraq, ortaya çıxardığı nəticələrlə Qərbin verdiyi o uydurma cəfəng fikirlər heç vaxt üst-üstə düşmür. Bir sözlə, dövlətimiz inkişaf etdikcə, biz təzyiqlərlə daha çox üzləşəcəyik. Yaxşı olardı ki, onlara fikir verməyək və inkişafımızı davam etdirək.

*GÜLYANƏ*

# 2018-ci il uduşlarla başlandı

## *Yanvarın ilk yarısında üç "Cek Pot" uduşu qeydə alındı*

***Lotereya istehlakçılarına möhtəşəm uduşların sevincini yaşadan 2017-ci il tarixə qovuşdu. 16 "Cek Pot" uduşu qeydə alınan ötən il ərzində lotereyaların iştirakçıları irili-xırdalı milyonlarla uduşlara sahib oldular. 2018-ci il isə başlayar-başlamaz lotereyalar möhtəşəm uduşlarla hətta ən optimist iştirakçıları belə, yaxşı mənada təəccübləndirirlər. Belə ki, ilin ilk iki həftəsində lotereyalarda artıq 3 (üç) "Cek Pot" uduşu qeydə alındı.***

İntellektual lotereyalar 3 bəxtəvər həmvətənimizə sanballı uduş sevinci bəxş etdi. Əvvəlcə "5/36" lotereyasının 2018-ci il 2 yanvar tarixli tirajında 41min 380 manat, 11 yanvar tarixli tirajında isə 13 min 630 manat məbləğində "Cek Pot" uduşları qeydə alındı. Ənənəvi uduş yarışmasında "5/36" lotereyasının əzəli rəqibi - "6/40" lotereyasında da möhtəşəm uduş özünü çox gözlətmədi. Bu lotereyanın 13 yanvar tarixli tirajında 70 min 810 manat məbləğində möhtəşəm "Cek Pot" uduşu reallaşdı.

Bu uduşlar həm də onu göstərir ki, intellektual lotereyaların ənənəvi uduş yarışması davam etməkdədir. Xatırladaq ki, ötən ilin sonlarında - "5/36" lotereyasının 23 noyabr və 2 dekabr tarixli tirajlarında dalbadal qeydə alınan 53 min 930 manat və 9 min 230 manat məbləğində "Cek Pot" uduşlarının həyəcanı keçməmiş, "6/40" lotereyası 5 dekabr tarixli tirajında bu uduşlara 96 min 680 manat məbləğində möhtəşəm "Cek Pot" uduşu ilə layiqli cavab vermişdi. Budur, biz artıq ənənəvi "Cek Pot" uduş yarışının yeni mərhələsini müşahidə edirik. Belə ki, "5/36" lotereyasının 2 yanvar və 11 yanvar tarixli tirajlarında qeydə alınan "Cek Pot" uduşlarına "6/40" lotereyasının tutarlı cavabı özünü çox gözlətmədi. Bu lotereyanın 13 yanvar tarixli tirajında 70 min 810 manat məbləğində "Cek Pot" uduşu qeydə alındı. Beləliklə, "5/36" və "6/40" lotereyaları daha 3 həmvətənimizi sevindirdi.

Uzun illərdən bəri lotereya həvəskarlarına minlərlə möhtəşəm uduşlar bəxş edən "Binqo" lotereyası bu ildən etibarən iştirakçıların görüşünə yeni adla - "Yeni Binqo" adı ilə gəlir. Əvvəla, ötən tirajlardan son tirajınadək toplanan 5000 (beş min) manat məbləğində "Cek Pot", 21 min manat məbləğində "Binqo", 58 min manat məbləğində "Super Binqo", 60 min manat məbləğində "Fortuna" və nəhayət 75 min manat məbləğində "Meqa Pot" uduşları yenə də sizin ixtiyarınızdadır.

Bütün bu uduşlar "Yeni Binqo" lotereyasında oynanılır. Lakin burada söhbət, sadəcə ad dəyişilməsindən getmir. Məsələ burasındadır ki, "Binqo" lotereyası tirajında oyunda iştirak edən 1-dən 60-a qədər nömrələnmiş şarlardan 4-ü lototronda qalırdısa, "Yeni Binqo" lotereyası tirajında lototronda cəmisi 3 şar qalır. Dəyişiklik kifayət qədər ciddidir. Qalır bu təklifə yetərincə ciddi yanaşmaq və udmaq, o da sizlikdir.

Yeri gəlmişkən, lotereya həvəskarları arasında öz populyarlığı ilə seçilən "Klassik Loto" lotereyası da hazırda sanballı uduş mücrüsünə malikdir. Bu lotereya iştirakçılara 86 min manat məbləğində "Meqa Pot" təklif edir. Nəhayət, "4+4" lotereyası 133 min 92 manat məbləğində möhtəşəm "Cek Pot"u intellektual lotereya həvəskarlarının ixtiyarına verir. Bu ixtiyardan yararlanmaq üçün isə ilk növbədə lotereya biletlərini əldə etmək lazımdır.

Çoxsaylı lotereya həvəskarlarının müxtəlif zövqlərini nəzərə alan "Azərlotereya" bir-birindən maraqlı lotereyaları onların ixtiyarına verməkdə davam edir. Son illərdə dünya lotereya bazarında, ani lotereyaların xüsusi çəkisi sürətlə artmaqda davam edir. Azərbaycan lotereya bazarı da bu tendensiyadan yan keçməyib və ani lotereyalar günbəgün populyarlaşır.

Təbii ki, "Azərlotereya" bu amili nəzərə alır və bazarda uğurla fəaliyyət göstərən ani lotereyalar ailəsinə daha bir unikal layihə - "Şans ++" ani lotereyası qoşuldu. Bu lotereyanın da oyun qaydası çox sadədir. Lotereya biletlərinin üzərində "Şans 1", "Şans 2" və "Şans 3" kimi üç lövhə yerləşir. Uduşu müəyyənləşdirmək üçün üstüörtülü "Şans 1", "Şans 2", "Şans 3" lövhələrinin və "oyun xətləri"nin qoruyucu səthini pozmaq lazımdır. "Şans 1", "Şans 2" və ya "Şans 3" zonalarında yazılan rəqəm "oyun xətləri"nin üzərində olan rəqəmlərdən biri ilə üst-üstə düşərsə, bilet həmin xətdə göstərilən məbləği udmuş olur. Bilet bir neçə xətt üzrə uduşlu olarsa, uduşlar cəmlənir. Beləliklə, daha 304 min 390 ədəd uduş lotereya istehlakçılarının ixtiyarına verilib...




# İlin əvvəlindən paytaxt ərazisində 24 yol-nəqliyyat hadisəsi baş verib



İlin əvvəlindən bu günədək paytaxt ərazisində 24 yol-nəqliyyat hadisəsi baş verib. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin bölmə rəisi, polis polkovniki Vaqif Əsədov AZƏRTAC-a bildirib ki, hadisələr nəticəsində 9 nəfər ölüb, 26 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 5 hadisə, 2 ölüm, 9 xəsarət azdır. Hadisələrin 30 faizi sürət həddinin aşılması, 62 faizi isə piyadaların vurulması ilə bağlı olub. Ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin hamısı piyadavurma nəticəsində baş verib.

"Aparılan təhlillər göstərir ki, piyadavurma hadisələrinin əksəriyyəti məhz piyada keçidlərinin yaxınlığında baş verib. Bu, göstərir ki, piyadalar yolu keçərkən onlar üçün nəzərdə tutulmuş keçidlərdən istifadə etmirlər. Sürücülərə tövsiyə edirik ki, piyada keçidlərinin yaxınlığında ehtiyatlı olsunlar, sürəti azaltsınlar. Piyadalar isə keçidlərdən istifadə etsinlər, yaxınlaşmaqda olan avtomobillərin qarşısından keçməsinlər", - deyə V.Əsədov vurğulayıb.

# Keçən ildə "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan layihələrə investisiya qoyuluşunun həcmi açıqlanıb

2017-ci ildə "Cənub Qaz Dəhlizi"nin tərkib hissəsi olan layihələrə investisiya qoyuluşunun həcmi açıqlanıb. AZƏRTAC-ın sorğusuna cavab olaraq "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətindən (CQD) bildirilib ki, ötən il "Cənub Qaz Dəhlizi" layihələrində CQD-nin mülkiyyətində olan iştirak paylarının maliyyələşdirilməsinə 2,3 milyard ABŞ dolları məbləğində investisiya qoyulub.

Xatırladaq ki, "Cənub Qaz Dəhlizi" QSC Azərbaycan Prezidentinin "Şahdəniz qaz-kondensat yatağının istismarının ikinci mərhələsi və "Cənub Qaz Dəhlizi"nin yaradılmasına dair digər layihələrlə bağlı bəzi tədbirlər haqqında" 2014-cü il tarixli 25 fevral Sərəncamı əsasında yaradılmış və səhmlərinin 51 faizi dövlət mülkiyyəti olmaqla İqtisadiyyat Nazirliyinə, 49 faizi isə SOCAR-a məxsus olan qapalı səhmdar cəmiyyətidir.

# İnsan azadlığı mexanizminin keçdiyi mərhələlər

Azadlığın strukturunun digər bir mühüm səpkisi, onun mexanizminin keçdiyi mərhələlər hesab edilir. Belə prosessual davam edən halda götürdükdə, azadlığın aşağıdakı struktur mərhələlərindən keçdiyi göstərilməlidir: seçim azadlığı, müəyyən qərar qəbul etmə və konkret hərəkət (fəaliyyət).

Qeyd etmək lazımdır ki, yuxarıda sadalanan fazalar daxili məzmun etibarilə yekcins deyildir. Onların hər birinə dərindən yanaşdıqda, müxtəlif tərkib hissələri ilə əhatə olunduqlarını görmək olar. Məsələn, ilk nəzərdə sadə və adi görünən seçim azadlığı bir çox ünsürləri birləşdirir. O, insanın dünyagörüşü, bilikləri, təhsil və şüurluluq səviyyəsi və sair göstəricilər ilə ayrılmaz əlaqədə həyata keçirilir. Sonra azadlığı ifadə edən sərbəst seçim, həm də məqsəd və vasitələr ilə ayrılmaz surətdə bağlıdır. Belə ki, seçim aktını həyata keçirərkən, fərd istər-istəməz öz məqsədini nəzərdə tutmalı olur. Bununla yanaşı, məqsədi reallaşdırmağa yönələn vasitələr də azadlıqla sıx əlaqədardır. Bunu ondan görmək olar ki, insanın öz məqsədinə çatmaq üçün istifadə etdiyi real vasitələr, onun azadlığının çox mühüm ifadəsi və göstəricisidir. Həm məqsəd, həm də ona uyğun vasitələr seçərkən, insan özünün gələcəyigörmə qabiliyyətindən istifadə etməklə, əvvəldə mövcud olmayan nə isə bir yenilik yaratmağa səy göstərir ki, bu, onun azad yaradıcılığı kimi təzahür edir.

Azadlığın qərar qəbuletmə və qərarın yerinə yetirilməsi fazaları da daxilən şaxələnmiş xarakter daşıyır. Həmin anlayışın kompleks tədqiqində bu metodoloji məqam da mütləq nəzərə alınmalıdır.

Deyilənlərlə yanaşı, fəlsəfi ədəbiyyatda azadlığın strukturuna daha ətraflı və çoxsahəli yanaşma praktikası da tətbiq olunur. Bu mövqe azadlığı aşağıdakı dörd mərhələyə ayırır: a) idrak (dərk etmə); b) real əldə olunmuş azadlıq; c) azadlığın reallaşması şərti rolunu oynayan ünsiyyət; ç) azadlığın mənlik şüurunda ifadə olunan mərhələsi. Fəlsəfə elmləri doktoru Qərib Allahverdiyevin fikrincə, bu bölgü, bütövlükdə, uğurlu hesab edilə bilər. Əvvələ ona görə ki, azadlığın formalaşması və inkişafı prosesinin keçdiyi bütün əsas, mərhələləri dəqiq ifadə edir. Digər tərəfdən, burada, mənlik şüurunun xüsusi pillə kimi seçilib götürülməsi, elmi baxımdan maraq doğurur. Bütün bunlarla yanaşı, sözügedən təsnifatda ünsiyyətin azadlığın xüsusi mərhələsi kimi qeyd olunması fikri ilə razılaşmaq çətindir. Doğrudur, ünsiyyət, azadlığın reallaşması üçün çox mühüm şərtdir, lakin o, azadlığın özünə daxil olmayıb, ondan kənarda çıxış edir. Bu mənada, onu azadlığın daxili struktur mərhələsinə aid etmək, fikrimizcə, dəqiq deyildir. Digər tərəfdən, ünsiyyət, faktiki olaraq, proses kimi götürülən azadlığın keçdiyi bütün mərhələlərdə özünü göstərir, onların en kəsiyini əhatə edir. Buna görə də, onu yalnız bir pillə kimi təsəvvür etmək həqiqətə uyğun olmazdı.

Yuxarıda qeyd olunan hər bir mərhələ azadlığın ümumi strukturunda çox mühüm funksiyalar yerinə yetirir. Bu baxımdan, onların qısa səciyyəsini vermək məqsədəuyğundur. Birinci, şərti olaraq, idrakı azadlıq adlandırıla bilər. Onun əsas rolu azadlıq üçün zəruri olan ilkin nəzəri bilik ehtiyatı yaratmaqdır. Bunsuz azadlıq qeyri-mümkündür. Belə ki, yuxarıda qeyd olunduğu kimi, azadlığın mərkəzində duran iradə azadlığı, əslində, işi bilmək əsasında qərar qəbul etmək qabiliyyəti deməkdir. Buradan da aydın olur ki, insan ətraf dünya, sosial həyat, onun konkret tərəfləri haqqında nə dərəcədə geniş və dərin biliklərə malik olursa, onun azadlıq səviyyəsi üçün də bir o qədər geniş imkanlar yaranır. Doğrudur, əsl azadlıq dedikdə, cəmiyyətdə real münasibətlərdə onun praktiki əldə olunmuş səviyyəsi başa düşülür. Bununla yanaşı, azadlıq, həm də ideya və bilikdir, şüur göstəricisidir. Təsadüfi deyildir ki, azadlığın fəaliyyət mexanizmi biliklərdən başlayır. Bu, o deməkdir ki, azadlıqda onun yönəldiyi sahəyə dair obyektiv biliklərin əldə olunması, idrakı tərəf müstəsna dərəcədə böyük yer tutur. O, azadlığın subyekti tərəfindən varlığın müxtəlif tərəfləri və cəmiyyət haqqında elmi biliklər sisteminin necə mənimsədildiyinin göstəricisidir. Buna görə də, insanın hərəkətlərində və fəaliyyətində azadlığın ifadə olunması dərəcəsi, bir çox cəhətdən, onun biliklərə malik olma səviyyəsi, ictimai inkişafın obyektiv qanunlarını necə anlaması və onlara yiyələnmə məharəti ilə müəyyən olunur. Bu, tamamilə qanunauyğundur, çünki insan hər şeydən əvvəl öz fəaliyyətini yönəltmək istədiyi sahə haqqında biliklər əldə etməyə səy göstərir. Bunun əsasında, onda həmin obyekt haqqında müəyyən elmi təsəvvür formalaşır. Həmin təsəvvür müvafiq təfəkkürə arxalanır və özünün azad xarakteri ilə səciyyələnir. Belə təfəkkür azadlığı ümumi azadlığın ilk mühüm pilləsi rolunu oynayır, çünki əsl azadlığın yolu düşüncə və təfəkkür azadlığından başlayır. Azad təfəkkür bu və ya digər subyekt tərəfindən, ümumilikdə, bəşəriyyətin və konkret dövrün idrakı xəzinəsinin, müxtəlif elmi biliklər sisteminin necə mənimsədildiyinin, onun əhatə dairəsi və erudisiyasının çox mühüm göstəricisidir. Qeyd olunan keyfiyyətin formalaşmasında cəmiyyətdə təhsil sisteminin səmərəli təşkili müstəsna əhəmiyyət kəsb edir. Yüksək təhsil səviyyəsinə və geniş dünyagörüşə malik olan insan, öz tələbatları və maraqlarını mütabiq anlayır, qarşısına düzgün məqsəd qoyur və onu reallaşdırmağın səmərəli (yəni düzgün) yollarını və vasitələrini axtarıb tapır. Bütün bunlar isə, azadlıq prosesinin sonrakı struktur pillələri (seçim, qərar qəbulu və onu yerinə yetirmə) üçün əlverişli şəraiti və real imkanları təmin edir və onların işini asanlaşdırır. Vaxtilə Hegel azadlığın əldə edilməsində təfəkkürün və biliklərin müstəsna dərəcədə böyük yer tutduğunu vurğulayaraq yazırdı: "Cahil adam azad deyildir, zira, o özündən yüksəkdə və özünün fövqündəki yabançı bir aləmə qarşı durur və bu aləmdən asılıdır... Hər şeyi bilmək arzusu, fəlsəfi nüfuzetmənin ən ibtidai pilləsindən başlanmış ən yüksək pilləsinədək idraka meyil, yalnız bu, qeyri-azadlıq vəziyyətini aradan qaldırmaq, dünyanı təsəvvürdə və təfəkkürdə qavramaq səylərindən doğur".

Hegelin yüksək dəqiqlik və sərrastlıqla ifadə etdiyi bu fikirdən, belə bir nəticəyə gəlmək olar: həqiqi iradə azadlığı, düşüncə və fikir azadlığı yalnız dünyanı dərk etmək, burada baş verən hadisə və proseslərin səbəblərini əqlin gücü ilə açıb göstərmək, onların gələcəyinin əsas meyilini irəlicədən görmək və idarə etmək qabiliyyəti sayəsində mümkündür. Bununla əlaqədar, qeyd olunmalıdır ki, insan daim öz biliklərini zənginləşdirir. Bu, onu idraki azadlığının yüksəlişinə aparır. İdraki azadlığın artması, öz növbəsində, subyektin intellektual azadlığını və düşüncə azadlığını inkişaf etdirir. Bu prosesdə təhsil və təlimin təkmilləşdirilməsi müstəsna əhəmiyyətə malikdir. Onlarla yanaşı, insanın öz hafizəsini möhkəmləndirməsi və informasiya alma qabiliyyətini inkişaf etdirməsi də çox vacibdir. Bu mənada, göstərilməlidir ki, indi ölkəmizdə aparılan təhsil islahatları gedişində gənclərin bu keyiyyətlərə yiyələnmələr sürətlənir və intellektual azad insanın formalaşması prosesi intensivləşir. Deyilənlərlə yanaşı, bu da nəzərdə tutulmalıdır ki, bütün pillələrdən olan təhsil sisteminin əsas vəzifəsi gənclərə, sadəcə, biliklər və informasiya verməklə kifayətlənə bilməz. Onun bütün pillələrinin başlıca funksiyası insanlara çoxtərəfli biliklər və məlumatlar verməklə yanaşı, onlarda sərbəst düşünmə qabiliyyəti aşılamaqdır. Yalnız bu iki tərəfin həqiqi vəhdəti əsl intellektual azadlığı təmin edir.

İnsanın idrakı azadlığı inkişaf etdikcə, onun təbiət və sosial həyat, özünün burada yeri və rolu haqqında elmi təsəvvürləri dərinləşir, bu isə, onun azadlığının miqyasının genişlənməsinin vacib şərtidir. İnsanın azadlığı ikinci fazada, yəni azad seçimdə daha aydın üzə çıxır. Sözün əsl mənasında, götürülən azad seçim bununla səciyyələnir ki, o, əvvəlcədən hər hansı çərçivəyə salınmır. Bu halda, insan öz anladığı daxili zərurətə uyğun hərəkət edir. Doğrudur, azad seçimdə bəzən nəticələrin irəlicədən görünməməsi, subyektiv duyğu və istək, fərdin hər şeyi öz motivləri baxımından qiymətləndirməsi özünü göstərir. Lakin bu fakt onun, ümumilikdə, müsbət funksiyalarının əhəmiyyətinin kiçiltmir. Azad seçim, həm də fərdin malik olduğu və əldə rəhbər tutduğu dəyərlər oriyentasiyası ilə, bilavasitə bağlıdır.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Azadlığın ümumi strukturunda seçim azadlığının mühüm rolu bundadır ki, o da həmin prosesin başlanğıc pillələrindəndir. İnsan, azadlığı, ilk öncə, özünün şəxsi hissi kimi, seçim azadlığı kimi qəbul edir. Lakin daxili azadlığın mühüm tərəfi olan seçim elə belə baş vermir. O, insanın şüurunun və iradəsinin, daxili mənəvi göstəricilərinin birgə təsiri ilə həyata keçirilən spesifik proses kimi çıxış edir. Bu, onunla izah edilir ki, fərd, mövcud olan alternativlərdən, məhz birini seçim etməklə, bir növ, özünün gələcək nəzəri və ya praktiki fəaliyyətinin istiqamətini və əsas üfüqlərini cızır.

Azadlığın strukturunda müstəsna yer tutan seçim mərhələsindən danışarkən, göstərilməlidir ki, onun özü bir sıra daxili fazalardan (seçimin irəli sürülməsi, seçim haqqında qərar verilməsi və seçim qərarının yerinə yetirilməsi) keçir. Onların hamısı, ümumilikdə, azadlığın vacib və zəruri tərəfləridir.

Seçim mərhələsinin daxili bölgüsünün müəyyənləşdirilməsi baxımından, yeni kantçılıq cərəyanının görkəmli nümayəndəsi V.Vindelbandın mövqeyi maraq doğurur. Onun fikrincə, sözügedən proses aşağıdakı üç mərhələyə ayrılır: birinci mərhələ subyektin istəyini, onun malik olduğu həvəslər çoxluğunu əhatə edir (onlardan hər biri birbaşa hərəkətə keçə bilər). İkinci mərhələdə həvəslərin qarşılıqlı surətdə bir-birini ləngitməsi, tormozlaması (əngəl yaratması) özünü göstərir ki, bu nəticədə, tarazlığın qərarlaşması ilə başa çatır, yəni seçim məsələsi həll edilir. Üçüncü mərhələdə seçim edilmiş istəyin iradi-impuls əsasında müvafiq real hərəkətə keçməsi özünü göstərir.

Qeyd etmək lazımdır ki, azadlığın çox mühüm səciyyəsini təşkil edən seçim prosesinin daxili təsnifatını verərkən, əsas diqqəti bir-birindən nisbi müstəqil mənada fərqlənən, lakin ümumilikdə, vəhdəti təmin edən tərəflərin müəyyənləşdirilməsinə yönəldilməlidir. Bu baxımdan, psixoloji ədəbiyyatda irəli sürülmüş rəylər diqqəti cəlb edir. Məşhur psixoloq V.M.Teplovun fikrincə, azad seçim prosesi iki mərhələdən (fikri hərəkətlər və faktiki hərəkətlər) keçir. Onların hər birinin daxili strukturuna aşağıdakılar daxildir: hərəkət etməyin zəruriliyinin müzakirəsi, qərar, niyyət, motivlər mübarizəsi, hərəkətin planı və üsulunun seçilməsi, nəhayət, qəbul edilmiş qərarın yerinə yetirilməsi. Psixoloqların digər qrupu, ümumi mənada, hərəkətin (fəaliyyətin) azad xarakterini şərtləndirən amillər sırasına hərəkətin məqsədi və onun yerinə yetirilməsi şəraitini də əlavə edirlər. Görkəmli psixoloq S.L.Rübinşteyn isə, buraya, həm də subyektin hərəkətə olan tələbatlarını, nəticələrin irəlicədən müəyyən olunmasını və hərəkətin özünün, bilavasitə gedişini də daxil edir. İnsanın sərbəst seçimi bir çox cəhətdən onun iradəsi və zəkası ilə müəyyən olunur. Bu cəhətə xüsusi önəm verən Aristotel, qeyd edirdi ki, şüurlu seçim ağıldan, təfəkkürdən və mənəvi keyfiyyətlərdən kənarda qeyri-mümkündür.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

# “REAL” öz uğursuzluqlarına real yanaşsa, pis olmaz!

***Özünü fədakar, demokrat, təəssübkeş kimi qələmə vermək istəyənlər, adlarını istər müsavatçı, istər “şura” üzvü, “REAL”, fəal, nə qoyurlar qoysunlar, məqsədləri heç də milli maraqlar və xalqın mənafeyi deyil. Xalqın adından, sadəcə, istifadə etməyə çalışanların əsas məqsədi şəxsi mənafelərdir ki, bu yolda düşmənlə də, hətta şeytanla da əməkdaşlığa hazırdırlar. Müxalifətin iş birliyi tarixçəsinə, fəaliyyətinə və mövqeyinə nəzər saldıqda, görünür ki, zaman-zaman, məhz Soros kimi şeytanların marioneti kimi çıxış etmələri, onun kimilərinin ssenarilərinə xidmət etmələri onların, məhz şeytanın özü ilə əməkdaşlığının bariz nümunəsidir.***

Müxalifət düşərgəsində təmsil olunanların xidmətləri bu xalqa və dövlətə xəyanətdən ibarətdirsə, təmsil olunduqları qurumun adını nə qoyurlar-qoysunlar, heç fərqi yoxdur, bunun bir adı var: xəyanətkar. Müsavat adını öz çirkin əməlləri üçün istifadə edənlər, Sovet imperiyası qoşunları qarşısına əliyalın çıxan, milli maraqları, suverenliyi, müstəqilliyi rəhbər tutan xalqın, onun cəbhəsinin adını özününküləşdirməyə çalışanlar, “milli” sözündən yaratdıqları qondarma qurumdan yararlanmaq istəyənlər, bərk yanıldıqları kimi, “REAL” ifadəsinin də həqiqəti, reallığı əks etdirəcəyi xülyaları da əbəsdir. Çünki illərlə özlərini çox fərqli bir ampluada təqdim etməyə, güya ki, daha üstün bir model sırımağa çalışan “REAL”çıların “reallıqları” artıq ictimaiyyət üçün heç də gizli deyil və fəaliyyətləri bəllidir. Bəlli olan da, odur ki, adı fərqli olsa da, bu qurumun da fəaliyyəti digər milli satqınların fəaliyyətindən heç də fərqlənmir, məqsəd və məramlar, hətta niyyətlər də eynidir. Bu qurumun da fəaliyyəti, müxalifət düşərgəsində təmsil olunan digər partiyalar kimi, özünü təkcə Azərbaycan ictimaiyyətinə deyil, həm də xarici qüvvələrə sırımaq, siyasi dividendlər əldə etməkdir. Bunun üçün isə, birinci növbədə, özlərini yox dərəcəsində olan müxalifət qüvvələri arasında ən qabaqcıl kimi təqdim etmək, “şura”nın strategiyasından heç də fərqlənməyərək, özünü “ana müxalifət”, “dədə partiya” kimi sırımaq lazım gəlir. Görünür, məhz elə bu səbəbdən də, partiya olmağa belə ictimai bazası yetməyən “REAL” hərəkatı qondarma “Milli Şura” ilə bir araya gələ bilmir.

### “REAL” funksionerləri ilə qurumlararası gərginlik artır

“Şura”nın piket səviyyəli mitinqlərinə belə qoşulmaqdan imtina edən “REAL”çıların ambisiyaları onların birgə fəaliyyətinə, əməkdaşlığına imkan verə bilməz və bundan sonra da belə bir əməkdaşlıq ağlasığan deyil. “REAL” hərəkatının icraçı katibi Natiq Cəfərli deyir ki, “Milli Şura” yaradılarkən, danışıqlar apardıq, 7 dəfə görüş keçirdik və sadəcə, mövqelərimiz üst-üstə düşmədi deyə, suraya qoşulmadıq. Hətta sonralar da “şura” rəhbərliyi ilə görüşlər keçirildiyini, müzakirələr aparıldığını, Cəmil Həsənli ilə də münasibətlərin yaxşı olduğunu deyən “REAL” hərəkatının icraçı katibi “Milli Şura”da onlara qarşı aqressiyanın olduğunu vurğulayır.

Bir araya gəlmək bir yana, sosial şəbəkələr bu qurumlar arasında əsl kolizeyə çevrilib və tərəflərin bir-birini tənqid atəşinə tutmaları ənənə halını alıb. “Milli Şura” funksioneri, kinodramaturq Eldəniz Quliyevin öz facebook hesabından tez-tez “REAL” funksionerlərini aşağılayan status yazması, mütəmadi olaraq, qurumlararası gərginliyi artırır. “İlqar Məmmədov azad edilməsə, “REAL”ın əksər funksionerləri oriental rəqs ustasına çevriləcəklər” fikrini vaxtaşırı paylaşan E.Quliyevə “REAL”çılar da cavab vermək məcburiyyətindədir və bu da, münasibətləri daha da gərginləşdirir. Sosial şəbəkələrdə AXCP fəalları ilə “REAL” hərəkatı arasında qarşılıqlı ittihamlar baş alıb gedir. AXCP fəalları “REAL” hərəkatının funksioneri, tarixçi Altay Göyüşovu ciddi tənqid edirlər. Mübahisələr zamanı tərəflər bir-birinə təhqir yağdırmaqla etik çərçivələri aşır, biri digərinə adekvat cavab ünvanlayır. Təsir əks-təsirə bərabər olduğunu nəzərə alsaq, bu virtual savaşın nə vaxtsa bitəcəyinə heç güman da yoxdur.

“REAL”çılar da “Milli Şura”dakı sistemin əleyhinə oldularını gizlətmirlər. “Şura” yaradılarkən, ayrı-ayrı şəxslərin təmsil olunmasının vacibliyi deyil, dəyərlər, prinsiplər və məqsədlər üzərində qurulmalı olduğunu vacib hesab edirlər və guya bunu irad tuturlar deyə, həmin quruma qoşulmaqdan imtina edirlər. “Milli Şura” kimi birliklərin uğurlu olmadığını Azərbaycan tarixinin dəfələrlə sübut etdiyini deyən, yalnız bu həqiqətə real yanaşan “REAL”çılar uğursuzluqların onlara da şamil olduğuna real yanaşsalar, pis olmaz.

***İnam HACIYEV***

# Müxalifət düşərgəsi dağılan tifaqa bənzəyir

## *Teyyub Qənioğlu: “Bütövlükdə müxalif qüvvələrin vahid mövqedən çıxış etmələri imkan xaricindədir”*

***Məlum olduğu kimi, xaricə səfər edən dağıdıcı müxalif ünsürləri orada Azərbaycan əleyhinə anit-təbliğat kampaniyası aparırlar. Bu da onların növbəti dəfə xalqdan ayrı düşdüklərini göstərir. Təkamül partiyasının sədri Teyyub Qənioğlu “Səs” qəzetinə açıqlamasında xəyanət yolu tutan müxalif başbilənlərinin əməllərinə atalar məsələsi ilə giriş verdi: məsəl var deyir, pulu kim verirsə, musiqini də o sifariş edir: “Xaricə gedən müxalifət düşərgəsini təmsil edən şəxslər dəvətlə gedirlər. Yəni hər hansı bir fəaliyyət üçün məlumat almağa gedirlər.***



Təbii ki, təlimat almaq üçün də təlimat verən tərəfin mövqeyinə uyğun fikirlər yürütmək lazım gəlir. Müxalifət təmsilçilərini xaricə dəvət edənlərin məqsədi də, Azərbaycana qarşı mənfi fikir formalaşdırmaqdır. Bunu da dağıdıcı müxalifətin xaricə gedən liderləri çox gözəl bilirlər. Bir sözlə, dağıdıcı müxalifət təmsilçiləri xaricdə olan qüvvələrin gözünə girmək üçün əllərindən gələni edirlər. Bu da, çox mənfi bir haldır. Hansı mövqe tutmasından asılı olmayaraq, siyasətlə məşğul olan insan fikir yürütməmişdən qabaq, mütləq həmin fikrin dövlətin və millətin mənafeyinə nə qədər uyğun olduğunu düşünməlidir. Dövlətin və millətin mənafeyinə ziyan vuran hərəkətlərə əl atmaq düzgün deyil. Çünki dövlətin və millətin mənafeyi daimidir. Bir sözlə, hansısa xarici ölkədə ölkə haqqında nə isə bir mənfi fikir söyləmək, insana yaraşmayan bir hərəkətdir”.

“Hər zaman müxalifət liderləri arasında konfliktlər olub və bu gün də var. Bu baxımdan, demək olar ki, 2018-ci ildə keçiriləcək prezident seçkilərində müxalifət yenə də ortaq məxrəcə gələ bilməyəcək” mülahizəsinə cavab olaraq, partiya sədri bildirdi ki, bu gün müxalifət düşərgəsində elə bir müxalif siyasi qüvvə mövcud deyil ki, namizədliyini verərək, səs toplaya bilsin: “Çünki müxalifətin xalq tərəfindən heç bir siyasi dəstəyi yoxdur. Belə olan halda, müxalifətin bu seçkilərdə qalib olmaq şansları yoxdur. O cümlədən, müxalifət düşərgəsində olan siyasi qüvvələrin bir araya gəlmək imkanları yoxdur. Müxalifətdə olan siyasi partiyaların liderlərinin hamısı hesab edirlər ki, əgər birləşmək lazımdırsa, gəlin mənim ətrafımda birləşin, vahid namizəd varsa, onda mənim vahid namizədliyimi irəli sürün. Belə olan halda da, müxalifətin nə isə bir məsələ ilə bağlı bir araya gələrək, birləşməsi mümkün olan məsələ deyil”.

Partiya sədrinin sözlərinə görə, müxalifətdə olan daxili ziddiyyətlər, mənəm-mənəmlik, önə keçmək istəyi, yəni layiq olub olmamasından asılı olmayaraq, özünü ana müxalifət elan etmək istəyi, yeganə siyasi qüvvə kimi özünü qələmə vermək istəyi onları bir araya gətirməyə imkan vermir: “Bu il keçiriləcək seçkilərlə bağlı olaraq, müxalifət gündəmdə qalmaq üçün müxalif qruplar birləşib, siyasi blok yaradacaqlar. Amma son nəticədə, ümumiyyətlə, müxalif qüvvələrin vahid mövqedən çıxış etmələri imkan xaricindədir”.

***GÜLYANƏ***

# Çin BƏƏ vətəndaşları üçün vizasız rejim tətbiq edib



Çin Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) vətəndaşları üçün vizasız rejim tətbiq edib. “ArabianBusinessco” nəşri BƏƏ-nin Xarici İşlər və Beynəlxalq Kooperasiya Nazirliyinə istinadla xəbər verir ki, vizasız rejim bu gündən etibarən 30 gün ərzində BƏƏ vətəndaşlarının Çin ərazisində sərbəst yerdəyişməsinə imkan verəcək. AZƏRTAC xəbər verir ki, bu qərar Çin ilə BƏƏ arasında ikitərəfli əlaqələrin möhkəmlənməsinə, ticari və turizm əlaqələrinin təşviqinə yönəlib.Hazırda bu iki ölkənin şəhərləri arasında həftədə 60 aviareys həyata keçirilir, 2017-ci ilin birinci yarısında ikitərəfli ticarətin həcmi 20,25 milyard dollara çatıb.

# Serb partiyasının lideri Kosovoda öldürülüb

“Azadlıq, demokratiya, həqiqət” vətəndaş təşəbbüsünün lideri Oliver İvanoviç dünən Kosovoda sui-qəsd nəticəsində öldürülüb. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bunu Blic qəzetinə siyasətçinin vəkili bildirib. “Deyəsən, o, yerindəcə ölüb. Hazırda onun beş güllə yarası aldığı bizə məlumdur. O, dərhal xəstəxanaya çatdırılıb, həkimlər onu xilas etməyə çalışıblar, lakin bu, faydasız olub”, - İvanoviçin vəkili Neboş Vlaiç belə deyib. Polis sui-qəsd faktını təsdiqləyərək bildirib ki, siyasətçi xəstəxanadadır. Bütün asayiş keşikçiləri hücum edənlərin axtarışına yönəldilib.

KİV-də yayılan xəbərlərə görə, sui-qəsd siyasətçi öz partiyasının binasına girərkən baş verib. Polis yaxınlıqda yerləşən məhəllələrin giriş-çıxış yollarını bağlayıb. Oliver İvanoviç Kosovo serblərinin liderlərindən biridir. Vaxtilə Serbiya hökumətində Kosovonun işləri üzrə nazirlikdə dövlət katibi işləyib. 1999-cu və 2000-ci illərdə həmin regionda mülki alban vətəndaşlarına qarşı törədilmiş hərbi cinayətlərdə ittiham olunaraq 9 il həbs cəzasına məhkum edilib. İvanoviçin öldürülməsi ilə əlaqədar Serbiya Prezidenti Aleksandr Vuçiç milli təhlükəsizlik şurasının iclasını keçirəcək.

***Hər hansı bir fərd azadlığın müəyyən dərəcəsinə malikdir. Azadlıq fərdin öz davranışı ilə şüurlu-iradi seçim imkanı və qabiliyyətidir. O, insanın xarici şəraitdən müəyyən müstəqilliyini irəli sürür. Azadlığın mürəkkəb fenomen olduğu onun strukturunun təhlilində daha aydın üzə çıxır. O, məzmunca nə qədər genişdirsə, struktur etibarilə də bir o qədər çoxşaxəli və çoxpilləli xarakter daşıyır.***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# İnsanın azadlıq hüququ

Müxtəlif elmlər, öz predmeti baxımından yanaşmaqla, onu müvafiq struktur bölgülərinə ayırırlar. Bu mənada, onun bütün elmlər tərəfindən qəbul edilmiş vahid struktur təlimi, demək olar ki, yoxdur. Sözügedən məsələyə sosial-fəlsəfə baxımdan nəzər saldıqda, insanın tələbatları, maraqlarına və arzularına uyğun surətdə aktiv və müstəqil fəaliyyət göstərmək qabiliyyətinin müxtəlif pillələri və tərəfləri əsas götürülür (əlbəttə ki, cəmiyyətin buna yaratdığı şərait və real imkanlar daxilində).

Azadlıq çoxsəviyyəli və çoxölçülü hadisə olduğundan, onun sosial-fəlsəfi mövqedən araşdırılmasını sistemli təhlil metodologiyası əsasında aparmaq məqsədəuyğundur. Sistemli obyekt üçün zəruri olan aşağıdakı xassələr - keyfiyyət müəyyənliyinə malik olma, digər obyektlərdən fərqlilik və nisbi müstəqillik, daxili məzmun etibarilə geterogenlik (yəni daxilən yekcins deyil, rəngarəng olma), inteqral səciyyəyə malik olmaq azadlığa da məxsusdur.

Azadlığı sistem kimi təhlil edərkən, aşağıdakı məsələləri araşdırmaq tələb olunur: onun qurulușunu nəzərdən keçirmək, onu təşkil edən komponentləri seçib ayırmaq, bütöv tam daxilində onların yerinə yetirdiyi funksiyaları müəyyənləşdirmək, azadlığı bütöv bir tam kimi qoruyubsaxlayan və təkrar istehsalını təmin edən hissələrinin qarşılıqlı surətdə bir-birilə vasitələnməsi prosesini açmaq, bu prosesin öz inkişafının mümkün olan impulslarını üzə çıxarmaq.

Azadlığın digər insani keyfiyyətlər (iradə, məsuliyyət, seçim, dəyərlər və s.) ilə əlaqələri haqqında çoxlu yazıların olmasına baxmayaraq, bu anlayışın hərtərəfli sistemli təhlili, demək olar ki, verilməmişdir. Halbuki bu fəlsəfi fıkrin qarşısında duran (xüsusilə də, sosial fəlsəfənin) ən mühüm vəzifələrdəndir. Onun həlli azadlığın həqiqi mənasının açılmasına və müasir dövrdə onun məzmununda əmələ gələn yeniliklərin sistemləşdirilməsinə böyük köməklik göstərə bilər.

Qeyd olunmalıdır ki, azadlıq son dərəcə mürəkkəb, çoxsəviyyəli və çoxölçülü sosial fenomen olduğu üçün, onun struktur bölgülərinin müəyyən edilməsi, bir sıra metodoloji və elmi çətinliklər törədir. Başlıca çətinlik bundadır ki, bu məsələdə hər hansı bir göstəricidən çıxış etmək (elmi baxımdan, nə qədər mötəbər olsa belə) kifayət deyildir. Yalnız çoxsaylı, kompleks meyarlar təbiq etməklə, azadlığın struktur bölgülərini hərtərəfli araşdırmaq mümkündür.

Digər sistemli obyektlərdə olduğu kimi, azadlığın strukturunun təhlilində də, birinci növbədə, onun subyektini və obyektini müəyyənəşdirmək zəruridir. Bu onunla izah edilir ki, azadlığın hansı xarakter və istiqamətdə olmasından asılı olmayaraq, onda bu struktur komponentlər vardır və azadlığın strukturunun təhlili baxımından, çox mühüm rol oynayır. Subyekt və obyektin mahiyyəti haqqında ümumfəlsəfi müddəalar burada da tətbiq olunur. Lakin burada onların iki başlıca özünəməxsusluğu mütləq nəzərə alınmalıdır. Birinci odur ki, təbiətdəkindən fərqli olaraq, cəmiyyət hadisələri və proseslərində subyekt ilə obyekt, demək olar ki, eynidir, yəni insanlar sosial həyatın həm obyekti, həm də subyektidir. Obyekt ilə subyektin bu cür çulğalaşmış olması, heç şübhəsiz ki, azadlıq anlayışında da özünü göstərir. İkinci özünəməxsusluq, insan şüurunun fəal təbiətə malik olmasından, bütün fıkir aktlarının psixiki aktivliyin digər formalarının məqsədyönlü xarakterindən irəli gələn məsələlərə bağlıdır. Bu, əsas etibarilə, onda ifadə olunur ki, şüurun sosial davranışda başlıca tənzimləyici rolu azadlıqda daha güclü şəkildə özünü göstərir. Bununla yanaşı, nəzərdə tutulmalıdır ki, insanın daxili aləmi ilə bağlı proseslərdə, yəni şüur insanın öz daxili yaşantılarını öyrənməyə yönəldikdə, öyrənilən predmet (yəni şüurun halı) ilə dərk edən subyekt bir-birilə qovuşmur və bir-birindən fərqlənir.

Azadlığın sözügedən (binar) ikili strukturunda birinci tərəf, yəni subyekt rolunu insan oynayır. Bu halda, azadlığın kimin tərəfindən icra olunduğu başa düşülür. Lakin azadlığın subyekti daxili məzmun etibarilə bəsit olmayıb, bir çox növblərə malikdir. Bu, o deməkdir ki, azadlığın subyekti kimi ayrıca bir fərd (şəxsiyyət), müəyyən kollektiv və ya sosial birlik forması, milli-etnik birlik, bütövlükdə xalq, cəmiyyət və hətta bəşəriyyət də çıxış edə bilir.

Azadlığın obyekti dedikdə, onun yönəldiyi tərəf, sahə başa düşülür. Azadlığın subyekti kimi, obyekti də mürəkkəb məzmuna malikdir, yəni o, bütövlükdə, cəmiyyət həyatı və ya onun konkret sahəsi və insanlar arasında münasibətlər kimi ifadə oluna bilir. Bununla yanaşı, insanın daxili aləmi, mənəviyyatı və vicdanı da müəyyən halda azadlığın obyektinə çevrilə bilər. Nəhayət, azadlığın obyekti dedikdə, insanın fəaliyyətinin bütün istiqamətləri - iqtisadi, sosial, siyasi, mədəni və sair) başa düşülür. Fəlsəfə elmləri doktoru professor Qərib Allahverdiyev göstərir ki, azadlığın daxili məzmununun təsnifatını verərkən, hər şeydən əvvəl, onun həcminə görə aparılan aşağıdakı bölgünü qeyd etmək zəruridir: a) insanın təbiət qüvvələri və prosesləri üzərində ağalığı, yəni onlara münasibətdə müstəqilliyi və azadlığı; b) fərdin və müxtəlif birlik formalarında təmsil olunmuş insanların, mövcud cəmiyyətin sosial münasibətlər sisteminə nəzərən götürülən müstəqilliyi; c) insanın özü üzərində ağalığı, yəni insanın, sözün həqiqi mənasında, daxilən müstəqil olması, öz hərəkət və davranışını sərbəst idarə etməsi.

Birincı, azadlığın təzahüretmə sferasına görə iki yerə (təbii və sosial) ayrılması deməkdir. Burada insan və cəmiyyət ilə təbiət arasındakı münasibətlərin səviyyəsi, sosial mövcudluğun təbii şəraiti, sosiumun ətraf mühitlə əlaqələri məsələləri öz əksini tapır. Azadlığın ikinci növü isə sırf sosial məna daşıyır və insanlar arasında müxtəlif növ münasibətləri tənzimləyir. O, insanın sosial səciyyəsi ilə, bilavasitə bağlı olduğundan, xüsusi əhəmiyyətə malikdir. Bununla yanaşı, təbii azadlığın rolu aşağı salınmamalıdır. Belə ki, müasir elmi-texniki inkişaf şəraitində texnogen amillərin ətraf mühitə pozucu təsiri surətlə artır, cəmiyyətin və insanın normal həyat fəaliyyətinin əsasını təşkil edən təbii şəraitin və ətraf mühitin qorunması məsələlərinin (həm də onlara münasibətdə azadlıq ilə bağlı tərəfləri) həlli zəruri olur.

Sosial azadlıq da daxili məzmun etibarilə yekcins deyildir. İnsan fəaliyyətinin bütün konkret sferaları və sahələri onun tərəfləri kimi çıxış edir.

Nəhayət, azadlığın üçüncü növü də çox mühüm əhəmiyyət kəsb edir. Buraya insanın öz hissləri və ehtiraslarını cilovlaya bilməsi, hərəkət və davranışlarında öz nəzarətini həyata keçirməsi, onlara kənardan baxmaqla, qiymətləndirmək məharəti, bir sözlə, özünü müstəqil tənzimləmə ilə bağlı bütün məsələlər daxildir.

Növbəti bölgü azadlığın yönəlmə istiqaməti meyarı üzrə aparılır. Belə yanaşdıqda, azadlığın neqativ və pozitiv növlərini bir-birindən fərqləndirirlər. Bu bölgünün meyarı aksioloji səpgini ifadə edir, yəni azadlığı dəyərlilik baxımından qiymətləndirir. Neqativ azadlıq dedikdə, kimdən və nədən azad olmaq məsələsi birinci yerdə durur. Belə yanaşdıqda, insanın təbiətin kortəbii qüvvələrindən, sosial istismardan, milli zülmdən, köhnəlik qalıqlarından, mənəvi nöqsanlardan azad olması və sair əsas götürülür.

Azadlığın ikinci növü - pozitiv - azadlıq daha mühüm olub, insanın müxtəlif həyat fəaliyyəti sahələrində öz daxili iradəsini təsdiq etməsi və zənginləşdirməsi deməkdir. Deməli, azadlığa təkcə inkari və mənfi planda yanaşmaq doğru deyildir. Onda həm də insana öz mahiyyət qüvvələrini reallaşdırmağa imkan verən müsbət və pozitiv tərəf çox mühüm yer tutur. Bu münasibətdə vaxtilə K.Marksın irəli sürdüyü aşağıdakı fıkir ədalətli görünür: "İnsan azadlığı bu və ya digər inkari qüvvənin təsirindən yaxa qurtarmaq kimi deyil, öz həqiqi fərdiliyini təzahür etdirmək üçün istifadə etdiyi müsbət qüvvənin nəticəsi kimi özünü göstərir".

Azadlığın strukturunda daxili və xarici (subyektiv və obyektiv) səpgilər, xüsusilə, mühüm yer tutur. Qeyd olunan bölgünün əsası aşağıdakından ibarətdir: insanın praktiki fəaliyyəti gedişində azadlıq birdən-birə təzahür etmir, əvvəlcə fərd öz azadlığını subyektiv surətdə dərk edir, sonra isə müəyyən şərait və imkanlar çərçivəsində onu həyata keçirir. Fərd öz hərəkətlərini və məqsədini müəyyən edərkən, mövcud obyektiv zərurətə arxalanır. Daxili yetkinlik və dərinlik səviyyəsi meyarı üzrə yanaşdıqda, azadlığın bu növləri birbirindən fərqlidir. Xarici azadlıq daha çox obyektiv şərait və dövlətin hüquq sistemi vasitəsilə təmin olunan azadlığı və məcburiyyət azadlığını əks etdirir. Başqa sözlə deyilsə, o, insanların davranış və hərəkətlərinin üzdə olan zahiri tərəflərini qanunlarla tənzimləyir. Bu, çox vacib olsa da, kifayət deyildir. İnsan azadlığının çoxtərəfli və çoxölçülü xarakterini açarkən, onun obyektiv tərəfi ilə yanaşı, subyektiv səpkisinə xüsusi diqqət yetirilməlidir. Bu, həm də ona görə zəruridir ki, söhbət xarici məcburi qüvvələrin təhriki ilə deyil, məhz subyektin öz daxili əqidəsindən hasil olunan könüllü azadlıqdan gedir. Belə azadlıq isə, öz mahiyyətinə görə, özünüdərk edən subyektin azadlığı və müstəqilliyi kimi çıxış etdiyindən, xüsusilə, mühümdür. Daxili azadlıq insanın sosial mahiyyəti ilə, bilavasitə bağlıdır. O, insanı şüura, iradəyə və zəkaya malik mövcudat kimi səciyyələndirir. Daxili azadlıq insanın mənəvi dünyasından irəli gələn keyfiyyətləri ifadə edir. Bu mənada, E.M.Penkovun aşağıdakı fikri ilə razılaşmaq olar: "Daxili azadlıq insanın məqsədyönlü və məqsədəmüvafiq fəaliyyəti prosesində insan şüurunun seçici və razılaşdırılmış aktivliyi kimi təzahür edir. O, insanın bu və ya digər situasiyada müstəqil seçim etmək, qərar qəbul etmək və onlan konkret davranış aktında həyata keçirmək imkanını göstərir".

Daxili azadlıq, insanın məqsədyönlü fəaliyyəti gedişində onun şüurunun, iradəsinin və mənəvi qüvvələrinin birgə təsiri altında baş verən spesifik seçim aktivliyi deməkdir. O, müstəqil seçim etmək, qərara gəlmək və onu yerinə yetirmək imkanını əks etdirir. Daxili azadlığın özü mürəkkəb mexanizmə malikdir. Onun struktur bölgüsünün ilk mühüm tərəfini seçim azadlığı təşkil edir. Əslində, seçim azadlığı o deməkdir ki, fərd müxtəlif imkanlardan birinin üzərində dayanmaqla, özü daxilən, kənar təsir olmadan, öz fəaliyyəti və davranışının istiqamətini müəyyənləşdirir.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**

# SƏS

Son səhifə 18 yanvar

## Dubayda ərəb dünyasında ən böyük kitabxana açılacaq

2018-ci ilin ortalarında Dubayda Məhəmməd bin Rəşid Al Maktub adına böyük kitabxana açılacaq. AZƏRTAC xəbər verir ki, tikintisi Dubay Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Maktumun göstərişi ilə 2016-cı ilin fevralında başlanılan kitabxananın fondunda 1,5 milyondan çox cilddə kitab, 1 milyon audiokitab və 2 milyon elektron kitab saxlanılacaq. Beləliklə, 1 milyard dirhəmə (270 milyon dollar) başa gələn kitabxana dünyada ən iri elektron kolleksiya və ərəb dünyasında ən böyük kitabxana olacaq.

Ümumi sahəsi 90 min kvadratmetrdən çox olan kitabxana ixtisaslaşdırılmış bölmələrdən ibarətdir: ərəbdilli kitabxana, kütləvi kitabxana, uşaq kitabxanası, beynəlxalq kitabxana, kütləvi informasiya vasitələri kitabxanası, dövri nəşrlər kitabxanası. Yeni kitabxana ildə 42 milyondan çox oxucu və 100-dən çox mədəni tədbir qəbul edə biləcək. Açıq kitab şəklində inşa edilmiş yeddimərtəbəli binada rəsm qalereyası, habelə ərəb dilinin dəstəklənməsi və inkişafı üzərində işləyən ixtisaslaşdırılmış müəssisələr də yerləşəcək. Kitabxanada kitabların, əlyazmaların və sənədlərin qorunub saxlanılması və bərpa edilməsi mərkəzi, Al Maktum kolleksiyası üçün xüsusi kitabxana və sivilizasiya muzeyi fəaliyyət göstərəcək.

## Yumurta ən yaxşı zülal qaynağıdır

Hüceyrənin quru çəkisinin böyük bir hissəsini təşkil edən zülallar və ya proteinlər canlı orqanizmdə rast gələnən çox sayda üzvi birləşmələrin, hüceyrələrin tərkibində olduğundan mühüm əhəmiyyətə malikdirlər.

Bu səbəbdən onlar mühüm funksional elementlər olaraq, maddələr mübadiləsini idarə edən fermentlər hesab olunur. Eləcə də onların köməyi ilə genetik məlumatları da realizə etmək olur. Zülalların əsas quruluş vahidi amin turşulardır. Orqanizmdə zülal çatmasa iş qabiliyyəti zəifləyər, uşaqlarda fiziki və əqli inkişaf pozulmaları və xəstəliklər əmələ gələr. Ona görə də zülal insan və heyvanlar üçün ən vacib qida maddəsi hesab olunur. Bioloji funksiyalarına görə isə zülallar fermentlərə, nəqledici zülallara, ərzaq zülallarına, hərəkətverici zülallara, qoruyucu (mühafizə) zülallarına və tənzimedici zülallar kimi tanınır. İnsan üçün ətin, südün, yumurtanın, balığın, kürünün zülalları tam dəyərli zülallardır. Bitki zülallarının (buğda, vələmir, qarğıdalı, lobya, noxud) tərkibində əvəzedilməz amin turşuları olmur və ya çox az olur. Belə zülallar dəyərsiz (natamam dəyərli) zülallar hesab olunur. Bir çox məhsullar var ki, onlar həm amin turşusu baxımından zəngindir həm də keyfiyyətli zülal anbarıdır. Onuda qeyd etmək lazımdır ki, məlumata görə yumurta tam dəyərli zülal hesab olunsada onun sarısında 231 mg. xolestrol vardır. Sağlamlığımızı qorumaq üçün yumurtadan həddindən artıq istifadə düzgün deyildir. Lakin bir məsələyə diqqət yetirmək lazımdır ki, bədənimizin hormon istehsalı, hüceyrə divarı istehsalı üçün zülala ehtiyacı vardır. Yumurta orqanizmi enerji ilə təmin etdiyindən xüsusilə tez-tez istifadə edilməsi lazım olan, bəsləyici dəyəri isə olduqca yüksək bir qida növüdür. Bu baxımdan yumurta ən keyfiyyətli zülal qaynaqlarından biri hesab olunur.

## Kişilər və qadınlar üçün uzunömürlülük sirri

Uzunömürlü olmaq istəyirsən? Bunun yolu tapılıb. Sən demə, kişilərə uzunömür üçün yuxu, qadınlara isə tərəvəz lazımdır. Avstraliyalı alimlər belə qənaətə gəliblər. Qəbul edilən qidaların tərkibi B6 vitamini ilə xüsusilə bol olmalıdır. Bu vitamin tərəvəzlərdən əlavə ət, banan, qoz və sarımsaqda da boldur. Monaşa Universitetinin tədqiqatçıları yuxu və qidanın həyata təsirini müəyyən ediblər. Professor Mark Uolkvist əmindir ki, kişilər üçün yuxu qadınlardan daha vacibdir.

"Yuxusuzluq piylənməyə, diabetə, ürək-damar xəstəliklərinə, ürəyin işemik xəstəliklərinə və immunitetin ümumi zəifləməsinə səbəb ola bilər. Biz belə nəticəyə gəlmişik ki, hər iki cins yuxusuzluqdan əziyyət çəkir. Amma qadınlar yuxusuz qalsalar da, özlərinə kömək edə bilirlər. Bunun yolu isə çoxlu tərəvəz və B: vitamini olan qida yeməkdən keçir". Kişilərdə isə bu qabiliyyət yoxdur. Alimlərin məsləhəti isə belədir - hamı həm sağlamlığını, həm də xarici görünüşünü daha da yaxşılaşdıra bilər. Bunun üçün isə düzgün qidalanmaq (daha çox meyvə-tərəvəz, dəmir və B6 vitamini ilə bol qidalar) və yatmaq lazımdır.

## Ronaldo "Real"dan gedəcək?



"Real"-ın portuqaliyalı futbolçusu Kriştianu Ronaldo özünə yeni komanda axtara bilər. Bu barədə kral klubunun prezidenti Florentino Peres futbolçunun agentinə məlumat verib. Bir müddət əvvəl 33 yaşlı hücumçu da "Real Madrid"i tərk etmək istədiyini bildirib. Təcrübəli forvard Peresin onun məvacibini artırmamasından narazıdır. "Real Madrid" La Liqada geridə qalan 19 turdan sonra 32 xalla dördüncü pillədə qərarlaşıb və lider "Barselona"dan 19 xal geri qalır. Qeyd edək ki, Kriştianu Ronaldo 2009-cu ildə 93,4 milyon avro qarşılığında İngiltərənin "Mançester Yunayted" klubundan "Real Madrid"ə transfer olub. O, 2016-cı ildə İspaniya təmsilçisi ilə 2021-ci ilədək müqavilə bağlayıb.

## Ronaldinyo karyerasını rəsmən bitirib



Əfsanəvi braziliyalı futbolçu Ronaldinyo karyerasını rəsmən başa vurub. SİA-nın məlumatına görə, 37 yaşlı hücumçunun karyerasını bitirməsi barədə qardaşı Roberto de Assis Moreyra məlumat verib. Onun peşəkar karyerasında son klubu "Fluminense" olub. Futbolçu bu klubu 2015-ci ilin sentyabrında tərk edib. 2002-ci ilin dünya çempionu son vaxtlar müxtəlif nümayiş xarakterli matçlarda iştirak edib. Ronaldinyo karyerası ərzində PSJ, "Barselona" və "Milan" kimi məşhur klublarda çıxış edib.

## Şəhriyar Məmmədyarov Sergey Karyakinlə heç-heçə edib



Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov Niderlandın Veyk-an-Zey şəhərində keçirilən "Tata Steel Masters" superturnirinin liderlərini təqib edir. SİA-nın məlumatına görə, qrossmeysterimiz dördüncü turda rusiyalı Sergey Karyakinlə heç-heçə oynayıb. Rəqiblər heç-heçə barədə 47-ci gedişdə razılığa gəliblər. Aktivində 2,5 xalı olan Ş.Məmmədyarov norveçli Maqnus Karlsen və rusiyalı Vladimir Kramnik ilə 3-5-ci yerləri bölüşür. Turnirə hər biri 3 xal toplayan hollandiyalı Aniş Giri və hindistanlı Vişvanatan Anand liderlik edirlər.

Qeyd edək ki, beşinci tur Veyk-an-Zeydə deyil, Hilversumda təşkil olunub. Bu turda Vişvanatan Anand-Vey İ, Qaveyn Cons-Aniş Giri, Maqnus Karlsen-Vladimir Kramnik, Şəhriyar Məmmədyarov-Fabiano Karuana, Pyotr Svidler-Hou İfan, Uesli So-Başkaran Adxiban, Maksim Matlakov-Sergey Karyakin görüşləri keçirilir. Əlavə edək ki, beşinci turdan sonra turnirdə istirahət günü olacaq.

## Fransada hakim futbolçunu təpiklədi



Fransa çempionatının 20-ci turu çərçivəsində Nantda eyniadlı yerli klub və "Pari Sen-Jermen" arasında keçirilən matçın baş hakimi Toni Şapron meydan sahiblərinin onu yerə yıxan oyunçusu Dieqo Karlosu təpiklə vurub və meydançadan kənarlaşdırıb. Qalmaqallı insident görüşün 90-cı dəqiqəsində parislilərin hücumu zamanı baş verib. Topa yiyələnə bilməyən futbolçu hakimə toxunub və onu yaşıl örtüyün üzərinə yıxıb. Bundan hirslənən Şapron özünü braziliyalıya yetirib və oyunçunu ayağı ilə vurub. Bununla da kifayətlənməyən hakim Karlosa ikinci sarı, ardınca qırmızı kart göstərib və parislilərin lehinə cərimə zərbəsi təyin edib. Paris klubu səfərdə 1:0 hesabı ilə qalib gəlib və "Monako" klubunu 11 xal qabaqlayaraq turnir cədvəlində liderliyini davam etdirir.

## "Neftçi"də yeni legioner



"Neftçi" PFK heyətinə yeni futbolçu cəlb edib. SİA-nın məlumatına görə, paraqvaylı yarımmüdafiəçi Fransisko Xavier Qarsia ilə bir illik müqavilə bağlanıb. Qeyd edək ki, 26 yaşlı futbolçu bunadək Paraqvayın "Serro Portenyo", "İndependiente", "Sportivo Lukeno", "Deportivo Kapiata", "Nasional" və Kolumbiyanın "Atletiko Huila" klublarında çıxış edib.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500